# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 iyul 2026-cı il, cümə axşamı
№ 123 (7190)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı daha da möhkəmlənəcək



Bax səh. 2

# Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda çıxışı dünya mətbuatında

Bax səh. 5

## Azərbaycan-Çin münasibətləri hərtərəfli məzmuna malikdir

Azərbaycan ilə Çin arasında inkişaf edən ikitərəfli münasibətlər son illərdə qarşılıqlı etimad, strateji tərəfdaşlıq və ortaq iqtisadi maraqlar əsasında yeni mərhələyə yüksəlib. Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi və geoiqtisadi proseslərin sürətlə dəyişdiyi bir dövrdə hər iki ölkə əməkdaşlığın dayanıqlı inkişafını təmin edən istiqamətlərə xüsusi önəm verir. Bu baxımdan ticarət, nəqliyyat-logistika, investisiya, enerji, rəqəmsal iqtisadiyyat və humanitar sahələr üzrə genişlənən əməkdaşlıq Azərbaycan-Çin əlaqələrinin məzmununu daha da zənginləşdirir.

Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin aprelində Çinə reallaşan səfəri və bu səfər zamanı hərtərəfli strateji ələqələrin qurulması ilə bağlı Birgə bəyanatın imzalanması münasibətlərin inkişafına xüsusi təkan verib. Prezident İlham Əliyev ...

Bax səh. 6

## Azərbaycan-Slovakiya əlaqələri yaxın dostluq və tərəfdaşlıq əsasında inkişaf edir



Bax səh. 5

## Azərbaycan-Mərkəzi Asiya: Vahid iqtisadi və siyasi məkan

Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursunda Mərkəzi Asiyada yerləşən dövlətlərlə əlaqələrin genişləndirilməsi xətti xüsusi yer tutur. Əvvəllər ölkəmizlə bu region dövlətləri arasında münasibətlər ikitərəfli formatlarda və ayrı-ayrı beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdirilirdi. 2025-ci ilin noyabr ayında isə Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə quruma tam hüquqlu üzv qəbul edilib. Bundan başqa, respublikamızın Amerika Birləşmiş Ştatları ilə Mərkəzi Asiya dövlətlərini birləşdirən C5+1 formatında yer alması perspektivləri də kifayət qədər böyükdür. Artıq bu platformanın Azərbaycan vasitəsilə C6+1 formatında genişləndirilməsi ilə bağlı müzakirələr intensivləşib.

Bütün bunlar Azərbaycanla Mərkəzi Asiya dövlətləri ...

Bax səh. 6



# Yaxın Şərqdə gərginlik davam edir

Bax səh. 7

# Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı daha da möhkəmlənəcək

## Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayıb

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayıb. Məktubda bildirilib: "Hörmətli cənab Prezident, Əziz Qardaşım, 2016-cı ilin 15 iyul tarixində Türkiyə Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı Vətənlərini qorumaq üçün həyatlarını qurban vermiş bütün şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edir, onların ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm".

Məktubda o da qeyd olunub ki, on il əvvəl qardaş Türkiyə müasir tarixinin ən faciəli, eyni zamanda ən şərəfli səhifələrindən birini yazdı. Dövlətçiliyə, konstitusiya quruluşuna, milli iradəyə və demokratik əsaslara qarşı yönəlmiş xain çevriliş cəhdi Türkiyə xalqının sarsılmaz əzmi, mətinliyi və Vətənə sonsuz sədaqəti sayəsində qətiyyətlə dəf edildi: "Minlərlə insanın meydanlara axışaraq sinəsini sipər etməsi, dövlətinə, bayrağına və milli dəyərlərinə sahib çıxması əsl qəhrəmanlıq dastanı kimi əbədi olaraq milli yaddaşa həkk olundu.



Sizin qətiyyətli və uzaqgörən liderliyiniz, xalqımızın Sizin ətrafınızda sıx birləşməsi, çağırışlarınıza dərhal və tərəddüdsüz cavab verməsi həmin taleyüklü gecədə ölkənizi böyük faciələrdən xilas edən əsas amillərdən oldu.

Sizin rəhbərliyinizlə Türkiyə bu sınaqdan daha da güclənərək çıxdı, öz milli iradəsini və dövlətçilik ənənələrini bütün dünyaya bir daha nümayiş etdirdi. O tarixi gündə baş verənlər sübut etdi ki, xalq ilə dövlətin birliyi qarşısında heç bir məkrli niyyət, heç bir dağıdıcı qüvvə davam gətirə bilməz. Məhz buna görə də hər il 15 iyulda qeyd edilən "Demokratiya və Milli Birlik Günü" xalqınızın milli həmrəyliyinin, mübarizlik ruhunun, dövlətçilik ənənələrinin və azadlıq iradəsinin simvoludur.

Azərbaycan xalqı və dövləti əziz mirasımız olan "Bir millət, iki dövlət" prinsipini rəhbər tutaraq həmişə olduğu kimi o həlledici anlarda da qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi və onun yanında oldu. Bütün bunlar xalqlarımızın qardaşlığının və birliyinin nə qədər güclü və sarsılmaz olduğunu bir daha təsdiqlədi. Əminəm ki, nəsillərdən-nəsillərə ərməğan qalan güclü Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı daha da möhkəmlənəcək, strateji müttəfiqliyimiz bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və yeni məzmunla zənginləşməyə davam edəcəkdir. Əziz Qardaşım, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Türkiyə Respublikasına əmin-amanlıq, firavanlıq və rifah arzulayıram".

# Slovakiya Prezidenti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda rəsmi səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 15-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib. AZƏRTAC xəbər verir ki, Slovakiya Prezidenti Ulu Öndərin məzarı önünə əklil qoyub. Prezident Peter Pelleqrini, həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə ehtiramını ifadə edib, məzarı üzərinə tər güllər düzüb. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Şəhidlər xiyabanını da ziyarət edib. Ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Azərbaycan paytaxtının mənzərəsini seyr edən Slovakiya Prezidentinə Şəhidlər xiyabanının tarixi, bu məkanın xalqımızın yaddaşında tutduğu xüsusi yer və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Baş naziri Əli Əsədov Qətərin Azərbaycandakı səfirliyində olub



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 15-də Qətər Dövlətinin ölkəmizdəki səfirliyində olub.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ə.Əsədov Qətər Dövlətinin görkəmli dövlət xadimi, Ata Əmir Əlahəzrət Şeyx Həməd bin Xəlifə Al Taninin vəfatı ilə əlaqədar səfirlikdə açılan matəm kitabına ürək sözlərini yazıb, Qətərin Azərbaycandakı səfiri ilə söhbət edərək başsağlığı verib.

# Azad Şuşadan Azərbaycana və Türkiyəyə yeganə mesaj - dostluq və qardaşlıq

## Prezident İlham Əliyev: Biz bir yerdə olanda daha güclüyük

Bu gün Türkiyə-Azərbaycan dostluğu zirvədədir. İki qardaş ölkənin qarşılıqlı münasibətləri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ifadə etdiyi "Bir millət-iki dövlət" fəlsəfəsinə uyğun olaraq uğurla inkişaf edir . Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən bildirib ki, Türkiyə və Azərbaycan kimi iki ölkəyə mesaj yalnız dostluq və qardaşlıqdır. "Onlar dünyanın bütün ölkələrini götürsək belə, ən yaxın ölkələrdir. Əgər siz əməkdaşlıq, siyasi, iqtisadi, enerji, bağlantılar, insanlar arasında təmaslar səviyyəsinə baxsanız, bəlkə də dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən və dost olan Türkiyə və Azərbaycandan başqa digər iki dövlət tapmazsınız", - deyə dövlətimizin başçısı vurğulayıb.

**Tarixi bağlara söykənən və sınaqlarda bərkiyən qardaşlıq**

Azərbaycanla Türkiyənin qardaşlıq münasibətləri tarixi bağlara söykənir. Hər iki xalq ortaq mədəni irsi və mənəvi dəyərləri bölüşür. Əlamətdar haldır ki, bu gün Azərbaycanda və Türkiyədə həm dövlətlər səviyyəsində tarixi ənənələrin yaşadılmasına güclü siyasi iradə göstərilir, həm də cəmiyyətlərimizdə buna böyük istək var.

Azərbaycan və Türkiyə çətin günlərin dostlarıdırlar. Azərbaycan hər zaman Türkiyənin, Türkiyə də hər zaman Azərbaycanın yanında olub. Qardaş xalqlar yalnız xoş günlərin sevincini bölüşmür, həm də dar gündə bir-birinə dayaq durur, ehtiyac yarananda köməyə tələsirlər. Buna aid həm tarixdən, həm də müasir dövrdən çoxlu nümunələr göstərmək mümkündür. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi üç onillik ərzində həmişə Azərbaycana dəstək verib. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Müharibənin ilk günlərindən başda qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla əksər yüksəksəviyyəli rəsmilər Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən bəyanatlarla çıxış etdilər. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycana güc verdi. Nəticədə, Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı Qələbə qazanaraq respublikamızın ərazi bütövlüyünü təmin etdi. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir.

Öz növbəsində Azərbaycan da ən çətin vaxtlarında Türkiyəni tək buraxmır. Azərbaycan indiyədək Ermənistanın qardaş ölkəyə qarşı irəli sürdüyü saxta soyqırımı və ərazi iddialarının beynəlxalq səviyyədə ifşa olunmasında mühüm rol oynayıb. 2016-cı il iyulun 15-dən 16-na keçən gecə Türkiyədə xəyanətkar qüvvələr tərəfindən dövlət çevrilişinə cəhd göstərildi. Təbii ki, həmin gecə Azərbaycan xalqının da ürəyi qardaş Türkiyə ilə döyünürdü. Dövlət çevrilişinə cəhd hadisələri Azərbaycanın siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən birmənalı şəkildə qınanıldı və Türkiyənin qanuni hakimiyyətinə həmrəylik nümayiş etdirildi.

2023-cü il fevralın 6-da Türkiyə dəhşətli zəlzələ xəbəri ilə silkələndi. Episentri Kahramanmaraş şəhərinə düşən 7,7 və 7,6 bal gücündəki dağıdıcı zəlzələ qardaş ölkənin tarixində ən faciəvi səhifələrdən biridir Təbii fəlakətin miqyası kifayət qədər böyük oldu - dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirdi, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri aldı. Zəlzələ nəticəsində 38 min 901 bina dağıldı. Verilən məlumata görə, 11 vilayət, 124 rayon, 6929 kənd və məhəllə olmaqla 120 min kvadratkilometr əraziyə və 14 milyon insana təsir edən bu zəlzələ insan itkisi və əhatə etdiyi ərazi baxımından dünya üzrə ən dağıdıcı təbii fəlakətlər siyahısına daxil olub. Həmin faciə zamanı da Azərbaycan Türkiyəni tək buraxmadı. Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Kahramanmaraşda Prezident İlham Əliyevin xüsusi tapşırığı əsasında "Azərbaycan" məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Rəcəb Tayyib Ərdoğan sözügedən "Azərbaycan" məhəlləsini iki qardaş ölkənin ən mötəbər layihələrindən biri, qürur tablomuz kimi səciyyələndirib. Azərbaycan və Türkiyənin qardaşlığı xalqlarımızın zənginliyidir. Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda bildirdiyi kimi, biz bir yerdə olanda daha güclüyük.




**Beş il əvvəl imzalanan Şuşa Bəyannaməsi**

Bu günlərdə Qlobal Media Forumunun təşkil olunduğu azad Şuşa beş il bundan əvvəl daha bir mühüm hadisəyə şahidlik edib. Söhbət burada Azərbaycan və Türkiyə prezidentlərinin Şuşa Bəyannaməsini imzalamalarından gedir. Həmin sənədin imzalanması ilə Azərbaycan-Türkiyə münasibətləri müttəfiqlik səviyyəsinə yüksəlib. "Biz təkcə qardaş və dost deyilik, biz müttəfiqik. Əgər bizlərdən kiməsə xoşagəlməz və ya pis hadisə üz verərsə, digəri bütün potensialı, o cümlədən hərbi gücü ilə qardaşımızın müdafiəsinə qalxacaq. Həqiqətən real haldır və biz görürük etnik köklər, ortaq mədəniyyət və ümumi tarix ölkələrimiz üçün siyasi baxımdan bu qədər yaxın olmağa bir platforma yaradır. Əminəm ki, bilirsiniz, çox saylı hallar var ki, oxşar, kifayət qədər oxşar köklər və eyni dil, necə deyim, söz ehtiyatı elə bir platforma yaratmır. Əksinə, demək olar ki, eyni dildə danışan insanlar bəzən bir-biri ilə vuruşurlar. Eyni regionda olan insanlar bir-birini məhv edirlər. Beləliklə, Türkiyə və Azərbaycan nümunəsi qonşular tərəfindən baxılmalı və təbliğ edilməli nümunədir. Qonşular dəqiqliklə Türkiyə və Azərbaycan kimi davranmalıdırlar".

Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, həmçinin BMT, ATƏT, Avropa Şurası, TDƏŞ (TDT), İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verirlər.

Bəyannamədə tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərilməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur. Bəyannamədə iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi kimi müddəalar öz əksini tapıb. Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

*Mübariz ABDULLAYEV*

# IV Şuşa Qlobal Media Forumu...

## Prezident İlham Əliyev Forum iştirakçılarının suallarını cavablandırıb

əvvəli ötən saylarımızda

İyulun 13-də Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib, Forum iştirakçılarının suallarını cavablandırıb.




**Aleksey Naumov:** "3+3" formatı davam edir?

**Prezident İlham Əliyev:** Yox, yox, biz onu, necə deyərlər, lap əvvəldən başlatdıq və regionun işlərinin region ölkələri tərəfindən həll edilməli olduğu mövqeyindən çıxış etdik. Yeri gəlmişkən, düşünmürəm ki, kimsə bu mövzuya uzun müddətdir qayıdıb. Bəli, yaxşı ki, siz bu barədə xatırladınız.

Biz bunu münaqişədən sonrakı vəziyyət kimi, tam həll yoluna və suverenliyimizin tam bərpasına nail olmaq üçün başlatdıq. Biz təşəbbüs göstərdiyimiz zaman Qarabağın bir hissəsi hələ də işğal altında idi.

Hadisələrin necə inkişaf etməsi və Cənubi Qafqaz ölkələri ilə alyansların dəyişməsi nəzərə alındıqda, bu əməkdaşlığın formatına dair qiymətləndirməmiz təbii olaraq dəyişdi. Yəni düşünürəm ki, bu mərhələdə bunun tamhüquqlu altıtərəfli və ya beştərəfli əməkdaşlıq, - bilirik ki, Gürcüstan qoşulmayıb, - çox aydın gündəliyi olan beştərəfli əməkdaşlıq olması vacibdir. Bilirsiniz, bu, Azərbaycan və Ermənistan üçün çətir rolunu oynayacaq başqa bir Minsk qrupuna çevrilməsin. Xeyr. Biz bütün regionun - Rusiya, İran, Türkiyə, Ermənistan və Azərbaycan - hamısının məsələləri ilə bərabər hüquqda məşğul olmalıyıq. Bax, bu konsepsiya hazırda bizim tərəfimizdən əsas hesab olunur. Əgər eyni qavrayış digər paytaxtlarda da qəbul edilərsə, düşünürəm ki, ən azı xarici işlər nazirləri səviyyəsində beştərəfli görüşə tələbat yaranacaq.

**Moderator:** Rusiya-Azərbaycan münasibətlərinə dair daha bir maraqlı sual idi. Təşəkkür edirik. İndi isə sözü Gürcüstanın "Fortuna Radio Holding" şirkətini təmsil edən Tamara Giqoqidzeyə veririk.

**Tamara Giqoqidze:** Salam. Cənab Prezident, bizi dəvət etdiyiniz üçün çox sağ olun.



Bura gözəl ölkədir. Mən burada ikinci dəfə oluram. Təxminən 15 il əvvəl də gəlmişdim və bu müddət ərzində burada böyük tərəqqinin şahidi olmuşam. Buna görə Sizi təbrik edirəm.

İlk sualım radio sənayesi ilə bağlıdır. Bu gün dünyanın ən etibarlı və dayanıqlı media vasitələrindən biri olan radio yeni çağırışlarla üzüzədir.

Avtomobil texnologiyalarının sürətlə inkişaf etməsi həm radio yayımçıları, həm də dinləyicilər üçün ciddi narahatlıq doğurur. Diqqətinizi ona yönəltmək istərdim ki, idxal olunan yeni elektromobillərin sayı artır və onların bir çoxunda FM radio ümumiyyətlə yoxdur və ya avtomobilin ekranında onu tapmaq xeyli çətindir.

Avropada bir çox yayımçı və tənzimləyici orqanlar yeni elektromobillərdə FM radiosunun əlçatan və asanlıqla tapılan olmasını təmin etmək üçün siyasət və qanunvericilik işləyib hazırlayırlar. Azərbaycan Hökuməti bütün yeni avtomobillərdə cəmiyyətin maraqları naminə və təcili rabitə üçün FM radiosunun əlçatanlığını təmin etmək məqsədilə hökumət, tənzimləyicilər, yayımçılar və avtomobil sənayesi arasında əməkdaşlığı dəstəkləyəcəkmi? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən bunu tam dəstəkləyirəm. Yeri gəlmişkən, bilmirdim ki, elektrik avtomobillərdə FM radio yoxdur. Açığını desəm, mən radionu yalnız maşında olanda dinləyirəm. Maşında isə çox tez-tez oluram, çünki ölkənin müxtəlif yerlərinə, əsasən, maşınla səfər edirəm. Hər dəfə getdiyim zaman, radionu dinləyirəm və əsasən, musiqiyə qulaq asıram. Tam səmimi desəm, çünki digər mənbələrdən mənə verilən xəbərlər kifayətdir. Bir sözlə, avtomobili radiosuz təsəvvür edə bilmirəm. O cür maşınla heç bir yerə getmərəm.

Beləliklə, əgər hər hansı elə təşəbbüs olarsa, nə lazım olarsa, qoşularıq. Sadəcə bizə xəbər edin və biz tam bunu dəstəkləyərik. Ölkəmizlə bağlı xoş sözlərə görə də minnətdaram və qonşu üçün düşünürəm 15 il müddət çoxdur. Ümid edirəm, Azərbaycana tez-tez gələcəksiniz, xüsusən də indi artıq qatarımız var. Sağ olun.

**Moderator:** Bunu eşitmək çox, çox xoşdur. Bəli, əla sual oldu. Əlbəttə, məsələni mediaya çatdırdığınıza görə minnətdaram. İndi isə keçirik Yoşiki Kişidaya. Ümid edirəm ki, düz dedim. O, "JiJi Press" informasiya agentliyinin beynəlxalq məsələlər üzrə icraçı direktorudur.

**Yoşiki Kişida:** Cənab Prezident, bu fürsətə görə təşəkkür edirəm. Mən hərbi münaqişə zamanı yapon vətəndaşların İrandan təxliyə olunmasında Azərbaycanın yardımına görə birbaşa təşəkkürümü bildirirəm. Yaponiya, həmçinin xam neftin Yaponiyaya təchiz edilməsində Azərbaycanın dəstəyini yüksək dəyərləndirir. Gələcəyə nəzər saldıqda, Yaponiyaya Azərbaycanın xam neftinin artırılması potensialını necə görürsünüz? Enerji sektorundan başqa, yaxın gələcəkdə iqtisadi əməkdaşlığımızın hansı sahədə genişləndirilməsini və yapon şirkətlərindən yardımın göstərilməsini necə görürsünüz? Sağ olun.

**Prezident İlham Əliyev:** Bəli, düşünürəm ki, hazırda xam neftin Yaponiyaya təchiz olunması əvvəlki vaxtlardan daha əhəmiyyətlidir, çünki ənənəvi təchizat marşrutların pozulması ilə Azərbaycan nefti get-gedə daha mühüm rol oynayır.

Yardımla bağlı sualınıza gəldikdə, hazırda, biz məhsuldar əməkdaşlığın tərəfdarıyıq və düşünürəm ki, hər iki ölkənin yaxşı tərəfdaşlıq tarixçəsi var. Bəzən, o, daha dinamik olub, bəzən az. Bununla belə, bizim müxtəlif sahələrdə yaxşı əməkdaşlıq təcrübəmiz var. Bir çox yapon şirkəti Azərbaycanda iri sənaye sahələrdə podratçı kimi işləyib.

Mən yapon şirkətlərinin podratçı qismində tikdiyi bəzi böyük enerji stansiyaların açılışında şəxsən iştirak etmişəm. Yaponiyadan bizə daha çox sərmayələr yatırılmır, lakin ola bilsin, bu, baş verəcək. Düşünürəm ki, biz kifayət qədər bir çox məsələlərdə - enerji, texnologiya, ekologiya sahələrində əməkdaşlıq edə bilərik. Potensial qaydada, müdafiə sənayesi sahəsində əməkdaşlıq edə bilərik, çünki bilirəm ki, Yaponiya öz müdafiə sənayesini inkişaf etdirir. Biz də bunu edirik və təcrübə mübadiləsini həyata keçirə və ola bilsin, bir sıra birgə istehsal sahələrini yarada bilərik.

Bir daha deyim ki, bizim ticari münasibətlərdə əvvəlki illərdə yaxşı təcrübəmiz olub. Bildirim ki, hazırda aramızda daha az layihə var. Ola bilsin, son beş-altı il ərzində, biz İkinci Qarabağ müharibəsindən sonra aramızda o qədər də böyük diplomatik fəaliyyəti görmürük. Lakin düşünürəm ki, orada potensial var və əməkdaşlığın digər əlavə üstünlüklərini görmək üçün hökumət rəsmiləri, işgüzar dairələr, şirkətlər arasında daha çox görüşlər lazımdır. Çox sağ olun.

**Moderator:** Çox sağ olun. Əlbəttə, gələcəyə hər zaman ümid var. Davam edək. İndi isə keçək növbəti suala. Çinin Sinxua informasiya agentliyinin Bakı nümayəndəliyinin müxbiri cənab Lyu Şuçın bizimlədir.

**Lyu Şuçın:** Hörmətli cənab Prezident, salam. Əvvəlcə, forumda iştirak etmək imkanı yaratdığınıza görə Sizə təşəkkürümü bildirirəm.

İki sualım var. Birincisi, keçən il Çin və Azərbaycan arasında münasibətlər hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatdı. Hazırkı beynəlxalq mühitdə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün hansı sahələri prioritet hesab edirsiniz?

İkincisi, Çin və Azərbaycan arasında regional əlaqənin gücləndirilməsi və Orta Dəhlizin inkişafı sahəsində gələcək əməkdaşlıq üçün hansı yeni imkanlar görürsünüz? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Mənim keçən il Çin Xalq Respublikasına dövlət səfərimdən və hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasından sonra bütün sahələrin, - siyasi, iqtisadi, nəqliyyat, - hamısında qarşılıqlı fəaliyyətin əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunub. Biz buna çox şadıq və böyük əhəmiyyət veririk. Bu gün Azərbaycanda daha çox Çin şirkəti var. Onlardan bəziləri artıq böyük investisiyalar qoyur, digərləri isə müxtəlif infrastruktur layihələrində iştirak edir.

Dövlət səfərim zamanı Çinin bir çox aparıcı şirkətinin rəhbərliyi ilə görüşdüm və məmnunam ki, onların Azərbaycandakı fəaliyyətləri artıq öz nəticələrini verir, həm də çox səmərəli, sürətli və çox yüksək keyfiyyətlə işləyir.

Biz, həmçinin qarşılıqlı fəaliyyətin yeni bir fəslini - müdafiə sahəsində əməkdaşlığı açdıq. Azərbaycan artıq müəyyən hərbi məhsullar əldə edib, onlardan bəziləri Qələbəmizin beşinci ildönümünə həsr olunmuş paradda nümayiş etdirilib, bəziləri hələ yoldadır, digərləri isə hələ də müzakirə mərhələsindədir. Buna görə də biz hərbi-texniki təminat sahəsində əməkdaşlığı inkişaf etdirməkdə çox maraqlıyıq.

Orta Dəhlizə gəldikdə, Çindən Azərbaycan vasitəsilə və Azərbaycana daşınan yüklərin həcmi artır. Artıq qeyd etmişəm ki, biz ticarət limanımızın gücünü demək olar ki, ikiqat artırırıq və əsasən, Çindən, həmçinin Mərkəzi Asiya ölkələrindən gələn yeni yükdaşımaların həcmlərinə güvənirik. Buna görə də burada qarşılıqlı münasibətlərin çox yaxşı tarixi, həmçinin bu dəhliz boyunca yerləşən bir çox ölkə ilə çoxtərəfli əməkdaşlıq mövcuddur.

Onu da qeyd etməliyəm ki, Azərbaycanda Günəş enerjisinin inkişafı üzrə çoxsaylı layihələr həyata keçirilir. Çin şirkətləri bu sektora yalnız bu yaxınlarda investisiya qoymağa başlasalar da, Çindən kənar şirkətlərlə müqavilələr çərçivəsində Azərbaycanda quraşdırılan bütün Günəş panelləri Çin mənşəlidir. Bu o deməkdir ki, investordan asılı olmayaraq, Azərbaycanda gördüyünüz istənilən Günəş paneli Çində istehsal olunur. Belə olan halda, heç bir başqa ölkə qiymət və keyfiyyət baxımından Çin istehsalçıları ilə rəqabət apara bilməz. Yəqin təsadüfi deyil ki, hazırda Çin şirkəti tərəfindən Azərbaycanda işləyəcək və ixrac ediləcək Günəş paneli zavodunun tikintisi üçün böyük bir investisiya layihəsi həyata keçirilir.

İkitərəfli əməkdaşlığın ən son mühüm hadisələrindən biri kimi, hazırda şəhərdə gördüyümüz BYD elektrik avtobuslarının birgə istehsalını da qeyd edərdim. Bizdə avtobuslar üçün iki rəng var: elektrik avtobusları üçün yaşıl, ənənəvi avtobuslar üçün isə qırmızı. Nə qədər çox yaşıl avtobusumuz olsa, bir o qədər yaxşıdır.

Beləliklə, çoxlu sayda layihə var. Münasibətlərimizin inkişaf istiqamətindən çox məmnunuq və həmçinin idarəetmə səviyyəsində siyasi qərarların qəbul edilməsindən tutmuş konkret layihələrin həyata keçirilməsinə qədər olan vaxtın çox qısa olmasına sevinirik. Belə olan halda, bu, Çin şirkətlərini bir çox digərlərindən fərqləndirir, bəziləri ilə aylarla, bəlkə də illərlə danışıqlar aparmalı oluruq və nəticədə istehsalın qurulması prosesi uzanır. Bu halda hər şey tam olaraq cədvələ uyğun gedir, ona görə də həm mən, həm də Çin şirkətləri ilə əməkdaşlıq edən bütün xidmətlər çox məmnunuq. Buna görə də sizə təşəkkür edirəm.



**Moderator:** Çox sağ olun. Digər əla sual verildi. Rusiyadan Gürcüstana, Yaponiyadan Çinə keçdik, indi isə gəldik Argentinaya. Sözü veririk Sesiliya Deqel İnnosentiyə. O, Argentinanın "Perfil" mətbu orqanının xarici müxbiridir.

**Sesiliya Deqel İnnosenti:** Cənab Prezident, Sizi görməyimə şadam və məni dəvət etdiyinizə görə minnətdaram. İlk dəfədir Azərbaycandayam. Azərbaycan münaqişə bitdikdən sonra ərazi bütövlüyü prinsipinin qəti müdafiəçisidir. Bununla belə, Argentina, həmçinin Birləşmiş Krallıqla Malvinas adalarının suverenliyi ilə bağlı mübahisəyə eyni prinsiplə yanaşır. Əlbəttə, bu, tərəfləri danışıqlarını davam etdirməyə çağıran BMT-nin qətnamələrinə uyğun edir. Cənab Prezident, Argentina xalqına bu məsələ ilə bağlı hansı mesajı verərdiniz? Sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Məsələnin nə dərəcədə həssas olduğunu bilirəm. Hətta hələ tələbə olarkən və diplom işim üzərində çalışarkən mövzu İngiltərə-Argentina münaqişəsinə aid idi, çünki həmin vaxt baş vermişdi. Məncə, hadisə 1981-ci ildə baş verib, mən isə 1982-ci ildə təhsilimi bitirirdim. Hadisə yenicə baş vermişdi. Baş verən hadisələrin təhlilini 30 səhifədə yazdım. Düşünürəm, məsələnin yaxşı tərəfi odur ki, həmin vəziyyətə baxmayaraq, iki ölkə, yəni Birləşmiş Krallıq və Argentina yaxşı münasibətləri saxladılar. Bəlkə də bircə məsələdən başqa. Yaxın günlərdə onları yarımfinalda mübarizə gözləyir. Lakin o, həmçinin ilk deyil. Yadımdadır, əvvəllər də qarşılaşma olub və düşünürəm ki, həmin məsələni yaxşı məramla, danışıqlar yolu ilə həll etmək yaxşıdır. Əlbəttə ki, hər hansı ölkənin ərazi bütövlüyü kimi fundamental məsələnin həlli beynəlxalq hüququn normaları, BMT Təhlükəsizlik Şurasının və ya Baş Assambleyasının müvafiq qətnamələri əsasında olmalıdır.

Sizin qeyd etdiyiniz kimi, Azərbaycan həmin prinsipin qəti müdafiəçisidir. O, birmənalı olaraq bir faktla bağlıdır ki, bizim ərazi bütövlüyümüz pozulmuşdu. Amma hətta biz ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdikdən sonra belə həmin mövqedən geri çəkilmədik. Biz həmin məsələyə heç zaman siyasi üstünlüklər və ya ölkələrlə münasibətlər prizmasından baxmamışıq. Biz həmin məsələyə ədalət və beynəlxalq hüquq nöqteyi-nəzərindən yanaşırıq. Mesajıma gəldikdə, bilirsiniz, o, hüquqları müdafiə etməyi, suverenliyi qorumağı ehtiva edir. Eyni mesajı Ukraynadakı dostlarımıza ötən il verdik. Uzun yol qət edib gəldiyinizə görə bir daha çox minnətdaram. Qarşıdakı günlərdə komandanıza uğurlar arzu edirəm.

**Moderator:** Aydındır. İndi isə Argentinadan Pakistana keçirik. Bu gün burada Pakistan Televiziyasının rəhbəri Adil Şahzaib bizimlədir.

**Adil Şahzaib:** Zati-aliləri, çox sağ olun. Hazırda biz Pakistanda belə deyirik ki, Azərbaycanda əgər kimin üzündə təbəssüm yoxdursa, demək, o, Pakistandandır. Onların üzündə böyük təbəssüm görürsünüz. Adi münasibətlərdən qardaşlığa keçdik, bir-birimizi dəstəklədik və hər zaman belə də olacaq. Hazırda xalqlar arasında əlaqələr çox inkişaf edib. Buna görə Sizə və heyətinizə təşəkkür düşür. Sualım sülh ilə bağlıdır. Zati-aliləri, Siz haqlı olaraq qeyd etdiniz ki, Baş nazir Şahbaz Şərif və feldmarşal Asim Munir yorulmadan çalışdılar və dövlət yayım şirkətinin rəhbəri kimi, ilk prosesi İslamabadda birbaşa izləyə bildim. İnanın mənə, nümayəndələrimiz demək olar, 24 saat yatmadılar. Pakistan olmasaydı, düşünmürəm ki, həmin atəşkəsi görə bilərdik. Bizim üçün dayanmadan iş oldu. Zati-alinizin Baş nazir Şahbaz Şərifə və feldmarşal Asim Munirə ünvanlanan mesajı hansı olardı? Xüsusi olaraq, regionda uzunmüddətli sülh üçün daha nə edilə bilər? Sağ olun.

**Prezident İlham Əliyev:** Mesajlar ən xoş arzulardan ibarətdir və əlbəttə, istəyim onların böyük səylərinin davam etməsidir. Mən əziz qardaşım Baş nazir Şahbaz Şərifə zəng etdim və əsasən, Pakistanın vasitəçi səyləri sayəsində əldə olunmuş həmin razılaşma münasibətilə təbrik etdim. Bu, bir daha ölkənizə olan böyük beynəlxalq nüfuzu göstərdi. Siz yeganə ölkə oldunuz ki, həmin məsuliyyəti öz üzərinizə götürdünüz



və vasitəçiliyə müvəffəq oldunuz.

Biz, həmçinin hadisələri izlədik. Baş nazir və feldmarşalın, onların heyətlərinin həmin məsələyə özlərini tam ithaf etdiklərini gördük. Əminəm ki, son hadisələri və yeni gərginliyi nəzərə alaraq, onlar qarşıdurmanın dayandırılması üçün əllərindən gələni edəcəklər. Düşünürəm ki, Pakistandan başqa heç kəs onu edə bilməyəcək. Bu, ölkənizin bacarığının, liderlərinizin qabiliyyətinin, nəinki bu məsələyə görə, bütövlükdə qazandığınız böyük beynəlxalq hörmətin daha bir təzahürüdür.

**Adil Şahzaib:** Məndən soruşurlar, siz həqiqətən səyahətin çətinləşdiyinə görə Pakistana qayıda biləcəksiniz?

**Prezident İlham Əliyev:** Ölkəmizə xoş gəlmisiniz. Nə qədər lazımdırsa, burada qala bilərsiniz.

**Moderator:** Sağ olun, cənab Prezident. Siz bizə vaxtınızın iki saatını nəzakətlə ayırdınız. Bilirəm vaxt bitir. Əgər Sizin üçün məqbuldursa, bizim bir neçə digər sualımız da var. Hazırda keçək cənab Johongir Olimova. O, Sevimli TV kanalının müxbiridir. Ümid edirəm düz tələffüz etdim. Sevimli TV kanalı. Buyurun.

**Johongir Olimov:** Salaməleyküm, möhtərəm Prezident. Sualımı Azərbaycan dilində verməyə çalışacağam. Möhtərəm Prezident, mən Qarabağda bundan dörd il əvvəl olmuşdum. O vaxt bu bölgənin yenidən qurulması işləri sürətlə aparılırdı. Bu gün Qarabağa, bütün Azərbaycanın və Qafqazın mədəniyyət mərkəzi olan Şuşa şəhərinə yenidən gələrək böyük dəyişikliklərə şahid oldum. Sizin siyasi iradəniz və böyük Azərbaycan xalqının zəhməti ilə bu gözəl şəhər, bu gözəl Qarabağ yenidən öz tarixi mövqeyini bərpa edir. Bu münasibətlə icazə verin, Sizi təbrik edim.

İndi isə sualıma keçim. Son illər ərzində Özbəkistan ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyəyə çatmışdır. Bu isə bütün Mərkəzi Asiya ilə Qafqaz arasındakı münasibətlərə güclü dinamika vermişdir. Sözlərimin parlaq təsdiqi Azərbaycanın Mərkəzi Asiya liderlərinin Məşvərət görüşləri formatına qoşulmasıdır. Bu gün hətta beynəlxalq siyasi ekspertlər "Mərkəzi Asiya+Azərbaycan" formatını Böyük Mərkəzi Asiya adlandırırlar. Siz regionlarımızın bu yaxınlaşmasını necə qiymətləndirirsiniz və Özbəkistan Prezidentinin bu prosesdəki rolunu necə görürsünüz? Təşəkkür edirəm.



**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Özbəkistan-Azərbaycan əlaqələrinin təməlində bizim dostluq, qardaşlıq münasibətlərimiz dayanır. Hörmətli Prezident Şavkat Miromonoviçlə bizim şəxsi dostluğumuz bu münasibətləri daha yüksək səviyyəyə qaldırıb. Onu bildirməliyəm ki, Qarabağın bərpasında bizə birinci yardım edən məhz Özbəkistan Prezidenti olmuşdur. Füzuli şəhərində Mirzə Uluqbəy adına gözəl, böyük məktəb inşa edilmişdir və Şavkat Miromonoviçlə birlikdə biz o məktəbin açılışını qeyd etmişik. Yəni ondan sonra digər qardaş dövlətlər də bizə hədiyyələr etmişlər - Qazaxıstan, Qırğızıstan, Türkmənistan. Amma birinci yardım məhz Özbəkistandan gəlib.

Hər dəfə Özbəkistanda olanda bir daha əmin oluram ki, bizim xalqlarımız nə qədər bir-birinə yaxındır, bir-birinə bağlıdır. Yazılı sözləri görəndə heç bir tərcüməyə ehtiyac yoxdur. Dillərimiz də bir-birinə çox bənzəyir. Təbii ki, tələffüzdə bir qədər fərq var, amma prinsipcə hər şey anlaşılır. Bizi çox böyük tarixi əlaqələrimiz birləşdirir və Özbəkistanla münasibətlərin inkişafı bizim üçün prioritet məsələlərdən biridir. Onu da bildirməliyəm ki, Özbəkistan öz qardaşlıq missiyasını təkcə məktəblə yekunlaşdırmayıb. Xankəndi şəhərində birinci böyük sənaye müəssisəsi - tikiş fabriki yenə də Özbəkistan sərmayəsi hesabına açıldı və yenə də hörmətli Prezident Mirziyoyevlə birlikdə biz o fabriki ziyarət etmişik.

Bir çox iqtisadi-sənaye layihələri icra edilir. Həm Azərbaycan investisiyaları, həm Özbəkistan investisiyaları qoyulur. Biz 500 milyon dollar dəyərində birgə sərmayə fondu yaratdıq. Bu sərmayə fondu həm Özbəkistanda, həm Azərbaycanda müxtəlif layihələrin icrası ilə məşğuldur. Bu gün Azərbaycanın neft şirkəti SOCAR Özbəkistanda çox önəmli bir kəşfiyyat yatağına sərmayə qoyur və ümid edirəm ki, yaxın gələcəkdə bizə bir müjdə, xoş xəbər verəcəklər. Çünki bu gün enerji təhlükəsizliyi məsələləri, xüsusilə qaz təchizatı bir çox ölkələr üçün önəmlidir və ümid edirəm ki, "Üstyurt" yatağındakı kəşfiyyat işləri yaxşı nəticə ilə başa çatacaq.

O ki qaldı, Azərbaycan-Mərkəzi Asiya formatına, burada da Prezident Mirziyoyevin müstəsna xidmətləri, xüsusi rolu var. Azərbaycan artıq tamhüquqlu üzv kimi bu Məşvərət Şurasına qoşuldu. Mən fəxri qonaq qismində iki dəfə Zirvə görüşlərinə dəvət edilmişdim, son dəfə isə artıq Azərbaycan-Mərkəzi Asiya vahid bir Məşvərət Şurası yaradılmışdır. Bu, bizi çox qürurlandırır, çox sevindirir. Bu, deyə bilərəm ki, nadir bir hadisədir. Çünki biz coğrafi nöqteyi-nəzərdən, təbii ki, Cənubi Qafqazda yerləşirik. Amma mədəni, tarixi, etnik əlaqələr o qədər güclüdür və siyasi əlaqələr o qədər çoxşaxəlidir ki, dost Mərkəzi Asiya ölkələri bizi qəbul etməyə qərar verdilər.

Bu gün bu, geosiyasi və geoiqtisadi əlaqələrə də müsbət təsir göstərəcək. Çünki beləliklə, Mərkəzi Asiya Azərbaycanla vahid bir iqtisadi və siyasi məkanda birləşir. Eyni zamanda, bağlantılar, nəqliyyat, logistika layihələrinin icrası istiqamətində bunun çox böyük mənası var. Əlbəttə, deyə bilərəm ki, Prezident Şavkat Mirziyoyevin uzaqgörənliyi və strateji baxışları burada çox önəmli rol oynamışdır. Fürsətdən istifadə edərək, özbək qardaşlarımızı əldə edilmiş bütün uğurlar münasibətilə təbrik etmək istəyirəm. Mən tez-tez Özbəkistanda oluram, yəqin ki, bu il də olacağam. Hər dəfə orada yenilikləri görəndə çox sevinirəm. Bilirəm ki, qardaş özbək xalqı və dövləti Prezident Mirziyoyevin rəhbərliyi ilə uğurla, inamla irəliləyir. Sizə də "Xoş gəlmisiniz!" deyirəm.

**Moderator:** Sözü Dünya İnformasiya Agentlikləri İttifaqının sədri, TASS informasiya agentliyinin sabiq direktor müavini Mixail Qusmana verirəm.

**Mixail Qusman:** Hörmətli İlham Heydər oğlu, hörmətli Prezident, vəd edirəm ki, sualım keçənilki kimi toksik olmayacaq. Əminəm ki, bu, baş verməyəcək.

Bilirsiniz, mən dördüncü forumun iştirakçısıyam və bütün forumlarda Sizə suallar vermək şərəfinə nail olmuşam. Çox vacib bir detalı sizinlə bölüşmək istərdim. 2024-cü ildə Respublikaçılar Partiyasının qurultayından qayıdarkən Sizə sual verərkən, ABŞ-nin gələcək prezidenti ilə bağlı proqnozlarınız barədə soruşanda, Siz prezidenti səhvsiz müəyyən etdiniz və eyni zamanda, Azərbaycan-Amerika münasibətlərinin inkişafını düzgün proqnozlaşdırdınız.

davamı 4-cü səhifədə

# Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda çıxışı dünya mətbuatında

Azərbaycan Prezidenti İlham Əliyevin Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunda çıxışı, jurnalistlərin suallarına cavabları dünya mətbuatının diqqət mərkəzindədir.


Ильхам Алиев: Без активных контактов с Казахстаном ни один проект в регионе невозможен
13.07.2026 20:03 Алан Исаев


Türkiyənin Anadolu Agentliyi Şuşa Forumuna dair yaydığı xəbərdə Prezident İlham Əliyevin Türkiyə-Azərbaycan münasibətləri ilə bağlı mühüm fikirlərinə geniş yer ayırıb. Agentlik dövlətimizin başçısının Türkiyə və Azərbaycanın dünyada bir-birinə ən yaxın iki ölkə olduğuna dair fikirlərini qeyd edib. Bildirilib ki, Prezident İlham Əliyev Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin regional sabitlik və əməkdaşlıq baxımından da mühüm element olduğunu söyləyib. Agentlik dövlətimizin başçısının bu sözlərini sitat gətirir: "Bu, həm də təhlükəsizlik baxımından vacib amildir. Çünki burada, beş il əvvəl Şuşada


JordanDaily
HOME JORDAN BUSINESS HOSPITALITY FEATURES WORLD OPINIONS LIFE
World
President Aliyev opens the 4th Shusha Global Media Forum, highlights peace and Karabakh reconstruction
Monday - 13-7-2026 - 3:35 PM
Jordan Daily, Azerbaijan - President Ilham Aliyev said on Monday the Shusha Global Media Forum was created to provide an international platform for dialogue among media professionals while allowing participants to witness the reconstruction of Azerbaijan's Karabakh region.
"The idea of the forum was to create an atmosphere for media representatives from different parts of the world to address issues of common interest and mutual concern, while also giving them the opportunity to get

Türkiyə Prezidenti ilə birlikdə Şuşa Bəyannaməsini imzaladıq. Bu sənəd münasibətlərimizi faktiki olaraq müttəfiqlik səviyyəsinə qaldırdı. Buna görə də biz yalnız qardaş və dost deyilik, həm də müttəfiqik. Birimizin başına bədbəxt bir şey gələrsə, digərimiz onu müdafiə etmək üçün hərbi potensialı da daxil olmaqla, əlindəki bütün vasitələrlə qardaşının yanında olacaq".

Anadolu Agentliyi ilə yanaşı, Türkiyənin "TRT Avaz", "Milliyet", "Saray Medya", "Haber365", "Akşam", "Hürriyet", "Haber1", "Yeni Akit", "İhlas Haber Ajansı", "Manşet Haber", "Birlik" və "Haber Global" kimi digər aparıcı xəbər saytları və media platformaları da Şuşa Qlobal Media Forumunu və Prezident İlham Əliyevin çıxışını diqqət mərkəzində saxlayaraq geniş materiallar yayımlayıblar.

Rusiyanın TASS İnformasiya Agentliyinin dərc etdiyi xəbərdə Prezident İlham Əliyevin Azərbaycan ilə Rusiya arasındakı münasibətlərin çətin dövrünün geridə qaldığını və əlaqələrin tamamilə normallaşdığını bildirdiyi vurğulanıb. Agentlik, həmçinin Azərbaycan liderinin iki ölkə arasındakı münasibətlərin həm ikitərəfli formatda, həm də regional kontekstdə daha geniş coğrafiya üçün mühüm əhəmiyyət daşıdığına dair fikirlərini önə çıxarıb.

Rusiyanın "İzvestiya", "Kommersant", "Rossiyskaya qazeta", "Vedomosti", "Arqumentı i faktı", "Vzqlyad", "Moskovskiy komsomolets", eyni zamanda, "RİA Novosti", "İnterfaks", "RBC", "Lenta.ru", "Parlamentskaya Gazeta", "Novıye İzvestiya", "Mejdunarodnaya Jizn", "Veçernyaya Moskva" və "Vesti" kimi aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa IV Qlobal Media Forumundakı bəyanatlarını geniş işıqlandırıb. Bu mövzu rusdilli mətbuatda günün əsas beynəlxalq xəbərlərindən birinə çevrilib. Nəşrlər dövlətimizin başçısının çıxışından xüsusilə regional təhlükəsizlik, Bakı-Moskva əlaqələri və beynəlxalq təşkilatlarla münasibətlərə dair bəyanatlarını önə çıxarıblar. Xəbərlərdə Bakı və Moskva arasında əlaqələrin tam normallaşması, "3+3" regional platformasının Cənubi Qafqaz üçün əhəmiyyəti, həmçinin Azərbaycana qarşı qərəzli yanaşmalar davam edəcəyi təqdirdə ölkənin Avropa Şurasından tamamilə çıxa biləcəyi barədə xəbərdarlığı yer alıb.

Ukraynanın dövlət informasiya agentliyi olan "Ukrinform"da, "Gordon", "Tsenzor", "Korrespondent", "24tv.ua", "Apastrof" və digər xəbər portallarında da dövlətimizin başçısının jurnalistlərin suallarını cavablandırarkən söylədiyi fikirlərə dair xəbərlər dərc edilib. Həmin xəbərlərdə Prezident İlham Əliyevə istinadla qeyd olunur ki, Rusiya və Ukrayna arasında müharibə zamanı Avropa İttifaqına Azərbaycan təbii qazının tədarükü 65 faiz artıb və Azərbaycan hasilatı daha da artırmağa hazırdır. Hazırda mövcud nəqliyyat infrastrukturunun genişləndirilməsi zəruridir. Hasilatın əhəmiyyətli dərəcədə artırılması əhəmiyyətli investisiya tələb edir. Azərbaycan da enerji ixracatını şaxələndirmək üçün çalışır və artıq Suriyaya qaz tədarükünə başlayıb və Suriya vasitəsilə Yaxın Şərq bazarlarına çıxış imkanlarını nəzərdən keçirir.

Ukrayna mediasında Prezident İlham Əliyevin Rusiya-Ukrayna müharibəsinə dair fikirlərinə dair xəbərlər də dərc edilib.

İranın "İSNA", "Fararu", "Mardom Salari", "Akharin Khabar" və "Vista" kimi tanınmış media qurumları da Azərbaycan Prezidenti İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışını və regional məsə-


euronews. Live
News > World > Azerbaijan
Azerbaijan considering full withdrawal from Council of Europe, Aliyev says
Copyright Courtesy of Shusha Global Media Forum
By Jane Witherspoon & Saida Rustamova & Euronews Baku bureau
Published on 13/07/2026 - 10:13 GMT+2 • Updated 11:18
Add Euronews on Google
President Ilham Aliyev said Baku was considering full withdrawal from the 46-member organisation after Azerbaijan's voting rights in PACE were suspended in 2024.

lələrlə bağlı bəyanatlarını geniş işıqlandırıb.

Gürcüstanın "İnterpressnews", "Ambebi", "Newshub Georgia", "1tv.ge", "imedinews.ge", "news.ge", "resonancedaily.com", "for.ge", "mcm.ge", "aktual.ge","interpress.ge", "qafqazturk.com", "24news.ge" kimi mətbuat orqanlarında dərc olunan materiallarda Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurası və Avropa İttifaqı ilə münasibətləri barədə fikirlərinə yer ayrılıb. Qeyd edilib ki, Prezident İlham Əliyev Azərbaycanın qarşıdurma axtarmadığını və normal münasibətlərə üstünlük verdiyini bildirib.

Eyni zamanda, İordaniyanın "Ammon News Agency", "Hala News" və "Jordan Zad" mətbuat orqanları Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Media Forumundakı çıxışından mühüm məqamları işıqlandırıb. Həmin media qurumları dövlətimizin başçısının Azərbaycanın əməkdaşlığı gücləndirməyə və qarşılıqlı maraq doğuran məsələləri həll etməyə yönəlmiş xarici siyasət xəttini xüsusi qeyd ediblər. Xəbərlərdə, həmçinin Prezidentin Şuşa Forumunun yaratdığı müsbət beynəlxalq atmosferin möhkəmləndirilməsi, eləcə də ölkənin son dövrlərdə əhəmiyyəti kəskin artan coğrafi mövqeyinə uyğun olaraq regional əlaqələndirici infrastrukturun genişləndirilməsi barədə bəyanatlarına geniş yer ayrılıb.

Prezident İlham Əliyevin IV Qlobal Media Forumundakı çıxışından əsas məqamlar, həmçinin Qazaxıstanın "Ulysmedia", "Kursiv Media Kazakhstan", "İnterfaks Qazaxıstan", "Lada.kz" kimi xəbər agentliklərinin və saytlarının diqqət mərkəzində olub.

Rumıniyanın "Mediafax" xəbər agentliyi və "İnformat.ro" xəbər portalı dövlətimizin başçısının Azərbaycanın Avropa Şurası ilə münasibətləri, regional proseslər və ölkənin xarici siyasət prioritetləri ilə bağlı fikirlərinə xüsusi diqqət ayırıb. Xəbərlərdə vurğulanıb ki, Prezident İlham Əliyev çıxışında Azərbaycanın Avropa Şurası ilə gələcək əməkdaşlıq perspektivlərinə toxunaraq, təşkilatın ölkəyə münasibətilə bağlı yaranmış vəziyyətin Bakıda ciddi narahatlıq doğurduğunu bildirib. Dövlətimizin başçısına istinadla qeyd edilib ki, mövcud şəraitdə Azərbaycan Avropa Şurasında gələcək iştirakını müxtəlif aspektlərdən nəzərdən keçirir.

Misirin "Dar Al-Hilal" nəşrində Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunun qlobal medianın üzləşdiyi çağırışları əks etdirdiyini vurğulaması, medianın sülhün təşviqi, dezinformasiya ilə mübarizə və süni intellekt dövründə rolu ilə bağlı fikirləri, Azərbaycanın beynəlxalq əlaqələri, enerji siyasəti, yaşıl keçid, eləcə də Yaxın Şərqdə davamlı sülhə çağırışları geniş auditoriyaya təqdim olunub.

Çilinin "Radio Insular FM" və Kubanın "Prensa Latina" media orqanlarında Prezident İlham Əliyevin Azərbaycan-Rusiya münasibətlərinin normallaşması və əməkdaşlığın inkişafı, Azərbaycan-ABŞ əlaqələri, Azərbaycanın Avropa Şurasından çıxma ehtimalı, AŞPA-nın Azərbaycana münasibəti və Avropa təsisatları ilə əlaqələrin normallaşdırılması ilə bağlı fikirləri ön plana çıxarılıb.

Belarusun "BelTA" Dövlət İnformasiya Agentliyində Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurasından tamamilə çıxması ehtimalı və Avropa təsisatlarının Azərbaycana münasibətilə bağlı bəyanatlarına yer verilib.

Latviyanın "Inbox News" və "Delfi Latvia", Serbiyanın "Tanjug", "Politika", "B92", "Beta", "N1 Serbia", "RTV", "Srpski Kompas" və "Nova Srpska Politicka Misao", eləcə də Bolqarıstanın "Eurocom TV" media orqanlarında Prezident İlham Əliyevin AŞPA-da Azərbaycanın səsvermə hüququnun bərpası ilə bağlı mövqeyi, Avropa qurumları ilə münasibətlər, Avropa İttifaqına qaz ixracının artırılması, Azərbaycan-Çin əməkdaşlığı, BMT Təhlükəsizlik Şurasında islahatlarla bağlı təklifləri və Yaxın Şərqdə sülhə dair çağırışları geniş şəkildə işıqlandırılıb.

Vyetnamın "Vietnam.vn" və "Bao Quoc Te" media orqanlarında Prezident İlham Əliyevin Azərbaycan-Rusiya münasibətlərinin tam normallaşması, Avropa Şurası və AŞPA ilə fikir ayrılıqları, eləcə də Avropa qurumları ilə münasibətlərin normallaşdırılması üçün Bakının irəli sürdüyü şərtlərlə bağlı bəyanatları oxuculara təqdim olunub.


APP ASSOCIATED PRESS OF PAKISTAN Sign In
President Aliyev highlights Pakistan's role in regional peace as 160 delegates from 54 countries join 4th Shusha Global
President of Azerbaijan Ilham Aliyev said Pakistan could play the most effective mediating role in any conflict involving the United States and Iran, while crediting Prime Minister Shehbaz Sharif and Field Marshal Syed Asim Munir for their efforts to support peace and dialogue in the region.
By Mudassar Iqbal
SHUSHA, Azerbaijan, Jul 13 (APP): President of Azerbaijan Ilham Aliyev said Pakistan could play the most effective mediating role in any conflict involving the United States

Transmilli və qlobal media qurumlarından "Yahoo News", "Euronews" platformasında isə Prezident İlham Əliyevin Avropa qurumları ilə münasibətləri, Yaxın Şərqdəki vəziyyətə dair fikirləri, eləcə də Şuşa Qlobal Media Forumunda sülhün təşviqində medianın rolu, dezinformasiyaya qarşı mübarizə və süni intellekt mövzularında səsləndirdiyi mesajlar geniş auditoriyaya çatdırılıb.

*N.BAYRAMLI*

# Azərbaycan-Slovakiya əlaqələri yaxın dostluq və tərəfdaşlıq əsasında inkişaf edir

İyulun 14-də Azərbaycanda səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinin Prezident İlham Əliyevlə görüşlərində, eləcə də mətbuata bəyanatda səsləndirilən fikirlər Azərbaycan-Slovakiya əlaqələrinin strateji mahiyyətini əks etdirməklə, ölkələr arasında çoxşaxəli inkişaf gündəliyini təqdim etdi. Cənab İlham Əliyev tərəfindən vurğulandığı kimi bizim siyasi təmaslarımız müntəzəm xarakter alır, dinamik əlaqələrin inkişafı iki tərəfin niyyətini göstərir. Bu baxımdan Cənab Pelleqrinin səfəri Azərbaycan-Slovakiya münasibətlərində yeni səhifənin açılması kimi səciyyələndirilə bilər. Səfər rəsmi Bratistlava və Bakı arasında strateji tərəfdaşlıq münasibətlərini möhkəmləndirməklə, çoxşaxəli əməkdaşlıq üçün möhkəm zəmin yaradır, müasir inkişaf prioritetlərini müəyyənləşdirmək baxımından faydalı gündəlik formalaşdırır.

**Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətləri yüksək səviyyəyə çatdırıb**

Azərbaycan və Slovakiya arasında yaxın dostluq və tərəfdaşlıq münasibətləri ötən illər ərzində diplomatik səylərin artırılması, hökumət nümayəndə heyətlərinin və parlament qruplarının qarşılıqlı səfərləri və biznes-forumların keçirilməsi sayəsində möhkəmlənərək fəal siyasi dialoqun qurulmasına səbəb olub. Hər iki dövlət beynəlxalq təşkilatlar çərçivəsində bir-birini daim dəstəkləyib, ələlxüsus da Slovakiya Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məsələsində davamlı olaraq qətiyyətli mövqe nümayiş etdirib.Tərəflər arasında ötən il imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə və digər mühüm iqtisadi, siyasi və humanitar məzmunlu sənədlər ikitərəfli əməkdaşlığın daha da möhkəmlənməsi üçün yaxşı hüquqi baza yaradaraq dövlətlərarası münasibətləri ən yüksək səviyyəyə çatdırıb.

Ötən ilin dekabr ayında Cənab İlham Əliyevin geniştərkibli nümayəndə heyəti ilə Slovakiyaya səfəri isə tamamilə yeni siyasi məzmun kəsb etməklə, bir sıra mesajları çatdırır. Prezident Peter Pelleqrinin Bakıya səfəri isə güclü siqnallar verir, yaxın dostluğa əsaslanan əlaqələrin böyük inkişaf potensialına uyğun daha da irəliyə aparılacağına dair ümidləri artırır. Yeri gəlmişkən, P.Pelleqrinin iradəli və qətiyyətli siyasi lider kimi Azərbaycana və onun dövlət başçısına olan dərin etimadı və hörməti ikitərəfli siyasi münasibətlərin irəliyə aparılmasında mühüm rol oynayıb. Baş nazir olduğu dövrdə Azərbaycanda səfərdə olması və Slovakiyanın Bakıda səfirliyinin açılmasında onun rolunu xüsusi dəyərləndirmək olar. Azərbaycana olan xüsusi rəğbətin nəticəsidir ki, diplomatik əlaqələrin güclənməsi birbaşa siyasivə iqtisadi təmasları gücləndirib, Hökumətlərarası Komissiya yaradılıb və çoxistiqamətli əməkdaşlıq qurulub. Ötən ilin noyabrında Bakıda keçirilən hərbi paradda Slovakiyanın Baş nazirinin müavini və müdafiə nazirinin iştirakı




güclü dostluğun əlamətidir.

**Slovakiyanın enerji təhülkəsizliyində təminatçı dövlət...**

Azərbaycan Pan-Avropa klubuna qoşduğu Slovakiyanın enerji təhülkəsizliyində də mühüm təminatçı dövlət olmaqla, rəsmi



Bratistlavanı 2024-cü ildən Cənub Qaz Dəhlizinin üzvlərindən birinə çevirib. Avropa İttifaqının Rusiya qazından imtinası nəticəsində Avropanın enerji bazarlarında yaranmış çətin və ağır tarif yükləri Slovakiyanın daxili təchizat sisteminə də mənfi təsir göstərdiyindən və məhdudiyyətlər yarandığından Azərbaycanın dəstəyinə ehtiyacları isə daha da artır. P.Pelleqrinin qeyd etdiyi kimi Slovakiya hazırda Avropa İttifaqının Rusiya qazından imtina etməsi nəticəsində ağır vəziyyətə düşüb. Ona görə də Azərbaycan enerji təchizatında əsas həll variantının bir hissəsi hesab edilir. 16 dövlətə, Avropa İttifaqına üzv 10 ölkəyə qaz ixrac edən Azərbaycan isə enerji həmrəyliyinə sadiq qalaraq nəql potensialını və ixrac coğrafiyasını genişləndirməklə Slovakiyaya əlavə qaz nəqlini təmin edəcək. Tərəflər 2027-ci ildən sonra enerji təchizatı üçün sabit, uzunmüddətli həll variantının tapılmasında müzakirələri davam etdirəcəklər, bu isə Slovakiyanın enerji təminatının Azərbaycan hesabına daha da güclənməsi mümkün olacaq.

Azərbaycanın Aİ və Slovakiya ilə əməkdaşlığı yalnız enerji ixracı və logistika mübadilələri ilə məhdudlaşdırmır, eyni zamanda, regionun bərpası və sabitliyi, eləcə də geniş infrastruktur və nəqliyyat layihələri üçün strateji imkanlar açır. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin paraflanması və postmüharibə dövründə yaranmış yeni reallıqlar da Slovakiya üçün mühüm geosiyasi-iqtisadi imkanlar açır, regional əməkdaşlıq və rifah çərçivəsini müəyyən edir. Hazırda işğaldan azad edilmiş ərazilərdə "ağıllı kənd" konsepsiyası əsasında layihələrdə təmsil olunan slovak şirkətləri yeni münbit və sağlam investisiya mühitində daha geniş yer almağı planlaşdırır. Tərəflər həm də "yaşıl enerji" layihələrində fəal işləyir, həmin resursların istehsalı və emalı növbəti mərhələdə işə düşəcək Xəzər-Qara dəniz-Avropa "yaşıl enerji" kəməri vasitəsilə Slovakiyanın da bərpaolunan enerjinin nəqlinə imkan verəcək.



**Şərq-Qərb dəhlizində fəal əməkdaşlıq**

Dövlət başçılarının mətbuata bəyanatlarında çıxışlarından da aydın olur ki, Azərbaycan və Slovakiya yerləşdikləri regionda strateji əhəmiyyətə malik layihələrdə birgə yer almaq, nəhəng enerji-nəqliyyat platformalarında birəg iştirak etmək niyyətindədir. Xüsusilə də, Cənubi Qafqazın ən böyük iqtisadiyyatı olan, Asiya və Avropa ilə kəsişmədə yerləşən və zəngin enerji, qeyri-enerji resurslarına malik Azərbaycanla bütün regional proqramlarda müştərək addımlar atmaq Bratistlava üçün hədəf prioritetləridir. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi Şərqlə Qərb arasında körpü rolunu oynayan, Orta Dəhliz layihəsində fəal iştirak edən respublikamız Orta Asiyanı Avropa ilə birləşdirir. Ən etibarlı və ən təhlükəsiz marşrutlar Azərbaycan ərazisindən keçir və gələcək illərdə bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyaraq biz öz imkanlarımızı genişləndirəcəyik. Bu baxımdam Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında həmin bağlantılar mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan və Slovakiyanın müdafiə sənayesi sahəsində əməkdaşlığı sənayeyə də üstünlük verir, bu əməkdaşlığın da təməlində sülhsevər niyyətlər dayanır. Müharibə aparmaq fikrində olmayan və müharibələrin artıq keçmişdə qaldığını bəyan edən Azərbaycan müdafiə sənayesini sinergiyanın bir hissəsi kimi görür və Slovakiya texnologiyaları ilə Azərbaycanın imkanlarını birləşdirərək yeni məhsulların istehsalında maraqlıdır. 2027-ci və 2028-ci illərdə Slovakiya Bakıdakı səfirliyi vasitəsilə NATO-nun Azərbaycanda Əlaqələndirici Səfirliyi kimi işini davam etdirəcək ki, bu da müdafiə sahəsində əməkdaşlığın genişlənməsinə müsbət təsir göstərəcək.

Beləliklə, Prezident Peter Pelleqrinin Azərbaycana səfəri iki dövlət arasında strateji əməkdaşlığın gücləndirilməsinə və siyasi, iqtisadi, mədəni sahələrdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə mühüm töhfə verəcək.

*E.CƏFƏRLİ*



# Azərbaycan-Çin münasibətləri hərtərəfli məzmuna malikdir

## Prezident İlham Əliyev: Birgə Bəyanatın imzalanmasından sonra bütün sahələrin hamısında qarşılıqlı fəaliyyətin əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunub

Azərbaycan ilə Çin arasında inkişaf edən ikitərəfli münasibətlər son illərdə qarşılıqlı etimad, strateji tərəfdaşlıq və ortaq iqtisadi maraqlar əsasında yeni mərhələyə yüksəlib. Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi və geoiqtisadi proseslərin sürətlə dəyişdiyi bir dövrdə hər iki ölkə əməkdaşlığın dayanıqlı inkişafını təmin edən istiqamətlərə xüsusi önəm verir. Bu baxımdan ticarət, nəqliyyat-logistika, investisiya, enerji, rəqəmsal iqtisadiyyat və humanitar sahələr üzrə genişlənən əməkdaşlıq Azərbaycan-Çin əlaqələrinin məzmununu daha da zənginləşdirir.

Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin aprelində Çinə reallaşan səfəri və bu səfər zamanı hərtərəfli strateji əlaqələrin qurulması ilə bağlı Birgə bəyanatın imzalanması münasibətlərin inkişafına xüsusi təkan verib. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında bildirib ki, keçən il Çin Xalq Respublikasına dövlət səfərindən və hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasından sonra bütün sahələrin, - siyasi, iqtisadi, nəqliyyat, - hamısında qarşılıqlı fəaliyyətin əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunub: "Biz buna çox şadıq və böyük əhəmiyyət veririk. Bu gün Azərbaycanda daha çox Çin şirkəti var. Onlardan bəziləri artıq böyük investisiyalar qoyur, digərləri isə müxtəlif infrastruktur layihələrində iştirak edir".

**Azərbaycanda quraşdırılan bütün Günəş panelləri Çin mənşəlidir**

Qeyd edək ki, Çin Azərbaycanda bərpa olunan enerji sahəsində aktiv iştirak edir - Azərbaycan Prezidentinin Çinə səfərləri zamanı bu amil ön plana çıxıb. Qeyd edək ki, ötən ilin aprelində Prezident İlham Əliyevin Çinə səfəri zamanı bərpa olunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanıb. Bu sənədlər ümumilikdə 260 MVt gücündə günəş elektrik stansiyaları, 100 MVt-lıq üzən günəş elektrik stansiyası, 30 MVt gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 QVt gücündə külək elektrik stansiyasının inşası, daha 2 MVt gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpa olunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir. Dövlət başçısı qeyd edib ki, Azərbaycanda Günəş enerjisinin inkişafı üzrə çoxsaylı layihələr həyata keçirilir: "Çin şirkətləri bu sektora yalnız bu yaxınlarda investisiya qoymağa başlasalar da, Çindən kənar şirkətlərlə müqavilələr çərçivəsində Azərbaycanda quraşdırılan bütün Günəş panelləri Çin mənşəlidir. Bu o deməkdir ki, investordan asılı olmayaraq, Azərbaycanda gördüyünüz istənilən Günəş paneli Çində istehsal olunur. Belə olan halda, heç bir başqa ölkə qiymət və keyfiyyət baxımından Çin istehsalçıları ilə rəqabət apara bilməz. Təsadüfi deyil ki, hazırda Çin şirkəti tərəfindən Azərbaycanda işləyəcək və ixrac ediləcək Günəş paneli zavodunun tikintisi üçün böyük bir investisiya layihəsi həyata keçirilir".

**Hərbi-texniki təminat sahəsində əməkdaşlığı inkişaf etdirməkdə çox maraqlıyıq**

Əlaqələr həm də müdafiə sənayesi sahəsini əhatə edir. Prezident İlham Əliyevin Pekinə dövlət səfəri zamanı imzalanan Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatın, hərbi sahə daxil olmaqla 20-dən çox sənədin imzalanması tərəfdaşlığın deklarativ xarakter daşımadığını, konkret öhdəliklər və fəaliyyət planları ilə təmin edildiyini ortaya qoydu. Bu sənədlər paketi, əslində, sonrakı bütün hərbi əməkdaşlıq fəaliyyətlərinin, o cümlədən 2026-cı ilin aprelindəki işçi görüşün hüquqi və institusional əsasını təşkil etdi. Bu strateji çərçivə daxilində əməkdaşlığın texniki ölçüsü xüsusi diqqətə layiqdir, çünki Azərbaycanın Çindən əldə etdiyi hərbi platformalar ölkənin müdafiə qabiliyyətini fundamental şəkildə dəyişdirmək potensialına malikdir. Bu baxımdan ən əhəmiyyətli addım HQ-9BE uzaqmənzilli hava hücumundan müdafiə raket kompleksinin əldə edilməsidir. Azərbaycan bu müasir Çin istehsalı sistemi arsenalına qatan dünyada dördüncü ölkə olmaqla, Hava Hücumundan Müdafiə qabiliyyətini keyfiyyətcə tamamilə yeni səviyyəyə qaldırdı.

Azərbaycan-Çin hərbi əməkdaşlığının ən uzunmüddətli və ən transformativ aspekti həm də texnologiya transferi və birgə istehsal istiqamətidir. Tərəflər arasında müzakirə edilən əməkdaşlıq modelində silahların sadəcə idxalı deyil, onların müəyyən komponentlərinin Azərbaycan ərazisində yığılması nəzərdə tutulur. CPMIEC (China Precision Machinery Import-Export Corporation) kimi Çinin aparıcı dövlət müdafiə şirkətləri ilə birgə hərbi-texniki müəssisələrin qurulması məsələsinin prioritet elan edilməsi bu strategiyanın konkret institusional formada həyata keçirilməsi deməkdir. Dövlət başçısı IV Şuşa Qlobal Media Forumunun açılışında deyib ki, bu gün Azərbaycanda daha çox Çin şirkəti var. Onlardan bəziləri artıq böyük investisiyalar qoyur, digərləri isə müxtəlif infrastruktur layihələrində iştirak edir: "Dövlət səfərim zamanı Çinin bir çox aparıcı şirkətinin rəhbərliyi ilə görüşdüm və məmnunam ki, onların Azərbaycandakı fəaliyyətləri artıq öz nəticələrini verir, həm də çox səmərəli, sürətli və çox yüksək keyfiyyətlə işləyir. Biz, həmçinin qarşılıqlı fəaliyyətin yeni bir fəslini - müdafiə sahəsində əməkdaşlığı açdıq. Azərbaycan artıq müəyyən hərbi məhsullar əldə edib, onlardan bəziləri Qələbəmizin beşinci ildönümünə həsr olunmuş paradda nümayiş etdirilib, bəziləri hələ yoldadır, digərləri isə hələ də müzakirə mərhələsindədir. Buna görə də biz hərbi-texniki təminat sahəsində əməkdaşlığı inkişaf etdirməkdə çox maraqlıyıq".

**Çindən Azərbaycan vasitəsilə və Azərbaycana daşınan yüklərin həcmi artır**



İki ölkə arasında əlaqələrdən danışarkən, müasir qlobal iqtisadi münasibətlər sisteminin ən mühüm ştrixlərindən biri, Şərq-Qərb əməkdaşlıq xətti xüsusilə diqqəti cəlb edir. Yeni iqtisadi nizamın ən strateji məqamlarından olan Şərq-Qərb dəhlizi üzrə əlaqələr Bakı-Pekin münasibətlərinə xüsusi rəngarənglik qatır. Ötən ilin aprelində iki ölkə arasında imzalanan hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat bu əməkdaşlığın istiqamətlərini tam şəkildə özündə əks etdirir. Vurğulamaq lazımdır ki, Orta Dəhlizin inkişafına xüsusi həssaslıqla yanaşan Çinin Azərbaycana münasibətdə strateji tərəfdaş yanaşması ölkəmizə həm siyasi həm də iqtisadi üstünlüklər vəd edir. Paralel olaraq iki ölkə bu əlaqələrin şaxələndirilməsi istiqamətində davamlı işlər görürlər. Çin Xalq Respublikası hazırda Xəzər dənizinə, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir. Bu isə o deməkdir ki, Xəzər dənizinə və nəticə etibari ilə Azərbaycana yükdaşımaların həcmi artacaq. Bəli, Azərbaycanın təşəbbüskarı və fəal iştirakçısı olduğu Orta Dəhliz layihəsi Çin ilə Avropa arasında yükdaşımaların daha təhlükəsiz, sürətli və səmərəli marşrut üzrə həyata keçirilməsinə mühüm töhfə verir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, müasir nəqliyyat infrastrukturu və tranzit imkanları ölkəni bu marşrutun əsas həlqələrindən birinə çevirib. Çin üçün isə Orta Dəhliz tədarük zəncirlərinin şaxələndirilməsi və Avrasiya məkanında iqtisadi əlaqələrin genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Prezident IV Şuşa Qlobal Media Forumunun açılışında deyib ki, Çindən Azərbaycan vasitəsilə və Azərbaycana daşınan yüklərin həcmi artır: "Artıq qeyd etmişəm ki, biz ticarət limanımızın gücünü demək olar ki, ikiqat artırırıq və əsasən, Çindən, həmçinin Mərkəzi Asiya ölkələrindən gələn yeni yükdaşımaların həcmlərinə güvənirik. Buna görə də burada qarşılıqlı münasibətlərin çox yaxşı tarixi, həmçinin bu dəhliz boyunca yerləşən bir çox ölkə ilə çoxtərəfli əməkdaşlığı mövcuddur".

**Orta Dəhliz strateji təhlükəsizlik baxımından ön plana çıxır**

Sirr deyil ki, ABŞ-İran münasibətlərində davam edən gərginlik və Rusiya-Ukrayna müharibəsinin yaratdığı geosiyasi qeyri-müəyyənlik Avrasiya məkanında ənənəvi nəqliyyat və ticarət marşrutlarının etibarlılığına ciddi təsir göstərib. Mövcud şəraitdə dövlətlər və beynəlxalq şirkətlər yüklərin daha təhlükəsiz, sabit və qısa müddətdə daşınmasını təmin edən alternativ marşrutlara üstünlük verməyə başlayıblar. Bu kontekstdə Xəzər dənizi üzərindən Orta Dəhlizin strateji əhəmiyyəti daha da artıb. Dəhliz həm Şərqlə Qərb arasında ticarətin fasiləsiz davam etməsinə imkan yaradır, həm də qlobal təchizat zəncirlərinin şaxələndirilməsinə töhfə verir. Azərbaycanın müasir nəqliyyat infrastrukturu, liman və dəmir yolu imkanları Orta Dəhlizi regionun ən perspektivli tranzit marşrutlarından birinə çevirib. Beləliklə, mövcud geosiyasi qarşıdurmalar fonunda Orta Dəhliz yalnız iqtisadi deyil, həm də strateji təhlükəsizlik baxımından beynəlxalq əhəmiyyət qazanan nəqliyyat xətti kimi ön plana çıxır.

*P.İSMAYILOV*

# Azərbaycan-Mərkəzi Asiya: Vahid iqtisadi və siyasi məkan

Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursunda Mərkəzi Asiyada yerləşən dövlətlərlə əlaqələrin genişləndirilməsi xətti xüsusi yer tutur. Əvvəllər ölkəmizlə bu region dövlətləri arasında münasibətlər ikitərəfli formatlarda və ayrı-ayrı beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdirilirdi. 2025-ci ilin noyabr ayında isə Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə quruma tam hüquqlu üzv qəbul edilib. Bundan başqa, respublikamızın Amerika Birləşmiş Ştatları ilə Mərkəzi Asiya dövlətlərini birləşdirən C5+1 formatında yer alması perspektivləri də kifayət qədər böyükdür. Artıq bu platformanın Azərbaycan vasitəsilə C6+1 formatında genişləndirilməsi ilə bağlı müzakirələr intensivləşib.

Bütün bunlar Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında əlaqələrin dərinləşməsinin həm region və Avrasiya məkanı, həm də daha geniş coğrafiya üçün nə qədər böyük önəm daşıdığını aydın şəkildə göstərir. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən bildirib ki, Mərkəzi Asiya Azərbaycanla vahid bir iqtisadi və siyasi məkanda birləşir.

**Tarixdən qaynaqlanan və bu günün reallıqları ilə daha da möhkəmlənən əlaqələr**

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bu ölkələri çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Bu əlaqələr əsrlər boyunca qorunub saxlanıb və daha da zənginləşdirilib. Əlamətdar haldır ki, bu gün tarixdən gələn ənənələrin yeni reallıqlara uyğun davam etdirilməsinə həm dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir, həm də cəmiyyətlər, xalqlar buna böyük istək ortaya qoyurlar. Dövlət başçıları arasında yaranan səmimi münasibətlər, çoxsaylı mədəni tədbirlər, intensivləşən qarşılıqlı səfərlər bunun əyani təsdiqidir. Prezident İlham Əliyev 2025-ci il 16 noyabr tarixində baş tutan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə söylədiyi nitqində maraqlı statistika təqdim edərək bildirib: "Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər".

Bu statistika özlüyündə Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında siyasi əlaqələrin nə qədər yüksək səviyyədə olmasının göstəricisidir. Dövlət başçıları arasında yaranan xoş münasibətlər Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalanması ilə daha genişlənir. Həmçinin mütəmadi olaraq mədəniyyət günləri, sərgilər, konsertlər keçirilir ki, bu da xalqlarımızı və cəmiyyətlərimizi birbirinə daha da yaxınlaşdırır.



Mərkəzi Asiya dövlətləri Azərbaycanın üzləşdiyi Qarabağ münaqişəsinin lap əvvəlindən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstək veriblər. Postmüharibə dövründə də onlar işğaldan azad olunmuş ərazilərimizin bərpasına öz qardaşlıq dəstəklərini göstərirlər. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda bildirib ki, Qarabağın bərpasında bizə birinci yardım edən məhz Özbəkistan Prezidenti olmuşdur. Füzuli şəhərində Mirzə Uluqbəy adına gözəl, böyük məktəb inşa edilmişdir və Şavkat Miromonoviçlə birlikdə biz o məktəbin açılışını qeyd etmişik. Yəni ondan sonra digər qardaş dövlətlər də bizə hədiyyələr etmişlər - Qazaxıstan, Qırğızıstan, Türkmənistan. Amma birinci yardım məhz Özbəkistandan gəlib. Eyni zamanda Qarabağda dost ölkələrin iştirakı ilə birlikdə ayrı-ayrı sənaye layihələri icra edilir.

**Birgə platformalarda iştirak gələcək əməkdaşlığa güclü təkan verəcək**

Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurası artıq Azərbaycan da daxil üzv dövlətlərin gələcək koordinasiyalı fəaliyyətləri üçün müstəsna önəm daşıyan bir qurumdur. Bu gün Mərkəzi Asiya dinamik inkişaf və səmərəli əməkdaşlıq məkanıdır, burada davamlı artım və rifah üçün yeni imkanlar açılır. Region sürətlə qlobal iqtisadiyyata inteqrasiya olunur: investisiya cəlbediciliyi artır, üçüncü ölkə bazarlarına ixrac imkanları və tranzit potensialı genişlənir. Region ölkələri arasında illik qarşılıqlı ticarət 10 milyard dolları ötüb. Müəyyənləşdirilən prioritetlər bir sıra mühüm istiqamətləri əhatə edir. O cümlədən ortamüddətli dövrdə qarşılıqlı ticarət həcmini və ümumi xarici ticarət dövriyyəsini 1,5-2 dəfə artıracaq ticarət, iqtisadi və investisiya əməkdaşlığının keyfiyyətcə yeni səviyyəsinə çatdırmaq hədəflənib. Həmçinin inzibati maneələrin aradan qaldırılması, vergi və gömrük prosedurlarının sadələşdirilməsi, azad iqtisadi və sənaye zonalarından birgə istifadə məsələləri gündəmdədir. 2035-ci ilə qədər Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hərtərəfli Regional Proqramın hazırlanması və qəbul edilməsi ticarət həcmlərinin əhəmiyyətli dərəcədə artması üçün əlverişli şərait yaradacaq. Eləcə də təhlükəsizliyin və sabitliyin təmin edilməsi, terrorizm və ekstremizm təhdidlərinə, sərhədyanı cinayətkarlığa qarşı mübarizə üçün sistemli tədbirlər görülür.

Bir sözlə, Mərkəzi Asiya + formatında qarşılıqlı fəaliyyət güclənir və region nüfuzlu beynəlxalq forumlarda vahid mövqedən çıxış edir. Azərbaycanın bu formata qoşulması ilə regionun qlobal birlikdə səsinin daha da əhəmiyyətli olacağına böyük əminlik var. "Azərbaycan artıq tamhüquqlu üzv kimi bu Məşvərət Şurasına qoşuldu. Mən fəxri qonaq qismində iki dəfə Zirvə görüşlərinə dəvət edilmişdim, son dəfə isə artıq Azərbaycan-Mərkəzi Asiya vahid bir Məşvərət Şurası yaradılmışdır. Bu, bizi çox qürurlandırır, çox sevindirir. Bu, deyə bilərəm ki, nadir bir hadisədir. Çünki biz coğrafi nöqteyi-nəzərdən, təbii ki, Cənubi Qafqazda yerləşirik. Amma mədəni, tarixi, etnik əlaqələr o qədər güclüdür və siyasi əlaqələr o qədər çoxşaxəlidir ki, dost Mərkəzi Asiya ölkələri bizi qəbul etməyə qərar verdilər.

Bu gün bu, geosiyasi və geoiqtisadi əlaqələrə də müsbət təsir göstərəcək", - deyə Prezideent İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda vurğulayıb.

O cümlədən ABŞ və Mərkəzi Asiya dövlətlərinin birgə iştiraakı ilə yaradılan C5+1 formatının səmərəli işləməsi böyük dərəcədə burada Azərbaycanın da təmsil olunmasından asılıdır. Ölkəmizin həm ABŞ-la, həm də Mərkəzi Asiya dövlətləri ilə yüksək səviyyədə olan əlaqələri platformanın Azərbaycanla genişlənməsini mümkün edir. Eyni zamanda, əlverişli coğrafi yerləşməsi, müasir nəqliyyat infrastrukturuna malik olması respublikamızı C5+1 formatında diqqət mərkəzinə gətirir. Yeri gəlmişkən, Azərbaycanın vazkeçilməz rolu yüksəksəviyyəli rəsmilər və ekspertlər tərəfindən də etiraf olunur. Məsələn, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev KİV-ə müsahibəsində Azərbaycanın iştirakının vacibliyinə diqqət çəkərək vurğulayıb: "Mən Azərbaycanın da belə bir vacib forumda iştirakını arzuolunan hesab edirəm. Çünki enerji ehtiyatları, əlverişli coğrafi mövqeyi, həmçinin Prezident İlham Əliyevin strateji vizyonu və siyasi iradəsi nəzərə alınmaqla, bu ölkə mahiyyət etibarilə regional nəqliyyat, logistika və enerji gücünə çevrilib və Cənubi Qafqazda və ondan kənarda mühüm rol oynayır. Azərbaycan Böyük Orta Asiyanın təbii bir hissəsi hesab edilə bilər".

**Nəqliyyat, bağlantılar sahəsində əməkdaşlıq üçün yeni imkanlar**

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda Azərbaycanın Mərkəzi Asiya dövlətlərini birləşdirən qurumlara qoşulmasının önəminə diqqət çəkərək bildirib ki, eyni zamanda, bağlantılar, nəqliyyat, logistika layihələrinin icrası istiqamətində bunun çox böyük mənası var. Orta Dəhliz Azərbaycanla Mərkəzi Asiya dövlətlərini birləşdirən mühüm nəqliyyat marşrutudur. Bu marşrut dost dövlətlərə həm öz məhsullarını, həm də tranzit yüklərini Azərbaycan üzərindən Avropa bazarlarına çıxarmağa imkan yaradır. Mövcud geosiyasi realllıqlar şəraitində bu marşrutun aktuallığı heç vaxt olmadığı qədər artıb.

Gələcəkdə isə Azərbaycanın qətiyyətli səyləri sayəsində Orta Dəhlizin yeni qolu yaradılacaq. Söhbət Zəngəzur dəhlizindən (TRIPP marşrutundan) gedir. Ötən il avqustun 8-də Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutan görüşdə yeni marşrutun yaradılması ilə bağlı prinsipial razılıq əldə olunub və hazırda zəruri infrastrukturun yaradılması ilə bağlı müvafiq prosedurlar həyata keçirilir. Güclü və məsuliyyətli dövlət olan Azərbaycan yeni nəqliyyat bağlantısının ölkəmizin ərazisindən keçən hissəsində avtomobil yolunun və dəmiryolu xəttinin inşasını intensiv şəkildə davam etdirir. Hazırda layihələrin icrası son mərhələdədir. Öz növbəsində Mərkəzi Asiya dövlətləri də yeni marşrutun yaradılmasına güclü dəstək göstərirlər.

*Mübariz ABDULLAYEV*

# Yaxın Şərqdə gərginlik davam edir

## İranda yerləşən strateji hədəflərə qarşı genişmiqyaslı hərbi əməliyyat planları müzakirə olunur

İyulun 7-də Hörmüz boğazında üç ticarət gəmisinin hücuma məruz qalmasından sonra ABŞ-la İran arasında qarşılıqlı hücumlar hələ də davam edir. Ötən gün ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) Hörmüz boğazı və İranın sahil əraziləri yaxınlığında yerləşən onlarla hərbi hədəfə zərbələr endirərək İrana qarşı növbəti hərbi əməliyyatı başa çatdırıb. Bu barədə komandanlığın yaydığı açıqlamada qeyd olunub ki, ABŞ-ın qırıcı təyyarələri, pilotsuz uçuş aparatları və hərbi dəniz qüvvələri yeddi saat davam edən əməliyyat zamanı İranın raket və pilotsuz uçuş aparatları infrastrukturu, dəniz qüvvələrinə məxsus obyektlər və sahil müdafiə sistemlərinə yüksək dəqiqlikli sursatlarla zərbələr endirib. Açıqlamaya əsasən, əməliyyat nəticəsində İranın kommersiya gəmiçiliyinə və mülki heyətə təhdid yaratmaq imkanları daha da zəifləmiş olub: "Bu hücumlar ABŞ qüvvələrinin İran limanlarına və sahil ərazilərinə hərəkət edən gəmilərə qarşı dəniz blokadasını bərpa etdiyi gün həyata keçirilib".



### Tramp "Hörmüz"lə bağlı 20 faizlik rüsumu investisiya ilə əvəzləyib

Belə ki, ABŞ Mərkəzi Komandanlığı iyulun 15-də İran limanlarına və sahil ərazilərinə gedən və ya oradan çıxan gəmilərlə bağlı dəniz blokadasının bərpa edildiyini açıqlayıb. "ABŞ qüvvələri bu gün Şərq vaxtı ilə saat 16:00-da (Bakı vaxtı ilə saat 00:00) İran limanlarına və sahil ərazilərinə gedən və ya oradan çıxan gəmilərin dəniz blokadasını bərpa edib", - deyə açıqlamada qeyd olunub. Məlumata görə, hazırda Yaxın Şərq regionunda ABŞ Hərbi Dəniz Qüvvələrinin 20-dən çox gəmisi və yüzlərlə hərbi təyyarəsi yerləşdirilib. İran xarici işlər nazirinin müavini Kazım Qəribabadi isə bəyan edib ki, ABŞ-ın İran limanlarının blokadasına yenidən başlaması müharibənin dayandırılmasına yönəlmiş anlaşma memorandumunun pozulması deməkdir.

ABŞ Prezidenti Donald Tramp də iyulun 13-də bildirmişdi ki, ABŞ İran gəmilərinin və müştərilərinin giriş-çıxışının qarşısını alan blokadanı bərpa edir: "Bütün digər ölkələr boğazdan ədalətli və açıq istifadə hüququna malik olacaq. ABŞ bu andan etibarən Hörmüz boğazının qoruyucusu kimi tanınacaq, lakin dünyanın bu çox dəyişkən




bölgəsinin təhlükəsizliyini təmin etmək məqsədilə lazım olan bütün xərclər üçün göndərilən bütün yüklərin 20 faizini alacaq. Proses və formalaşma dərhal başlayacaq". Lakin tərəfdaş ölkələrlə məsləhətləşmədən sonra Ağ Evin rəhbəri fikrini dəyişərək deyib: "Yaxın Şərqdəki liderlərlə yüksək məhsuldar danışıqlara əsaslanaraq, müxtəlif Körfəz dövlətlərinin ABŞ-yə edəcəyi 20 faizlik ödənişi ticarət və investisiya sazişləri ilə əvəz etmək qərarına gəldim. Bu, böyük investisiyalar olacaq". Tramp qeyd edib ki, Hörmüz boğazı İran istisna olmaqla, bütün gəmi trafikinə açıqdır: "ABŞ Silahlı Qüvvələrinin gücü sayəsində neft əvvəlkindən daha çox axır".

### Hücumlar Tehranın danışıqlara qayıtmasına qədər davam edəcək

Bununla belə ABŞ lideri hesab edir ki, Hörmüz boğazına alternativ neft nəqli marşrutları tapmaq mümkündür. Onun sözlərinə görə, son aylarda yeni boru kəmərlərinin tikintisi istiqamətində irəliləyiş əldə olunub və Texas, eləcə də Alyaska da daxil olmaqla alternativ marşrutlar formalaşdırılır.

Donald Tramp Ağ Evin Vəziyyət Otağında Hörmüz boğazı ətrafında mümkün genişmiqyaslı hərbi əməliyyat müzakirə etmək üçün görüş də keçirib. "Axios" xəbər verir ki, müzakirə olunan əməliyyatın miqyasının hazırda Hörmüz boğazı ətrafında həyata keçirilən zərbələrdən daha geniş olacağı bildirilir. Məlumata görə, Tramp bu müşavirəni ABŞ ordusunun Hörmüz boğazı bölgəsində və İranın cənub sahilləri boyunca ardıcıl dördüncü gündür zərbələr endirdiyi bir vaxtda çağırıb. Mənbələrin bildirdiyinə görə, görüşdə Trampın milli təhlükəsizlik üzrə yüksəksəviyyəli komandası, o cümlədən Vitse-prezident Cey. Di. Vens, Dövlət katibi Marko Rubio, müdafiə naziri Pit Heqset, Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Den Keyn, Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Retkliff, Ağ Evin xüsusi nümayəndəsi Stiv Uitkoff və digər şəxslər iştirak ediblər.

Mənbələr qeyd ediblər ki, müşavirədə Hörmüz boğazındakı İran hədəflərinə zərbələrlə yanaşı, İran ərazisində yerləşən strateji hədəflərə qarşı daha genişmiqyaslı hərbi əməliyyat planları da müzakirə olunub. Tramp bəyan edib ki, İrana endirilən zərbələrin məqsədi Tehranın danışıqlar masasına qayıtmasına nail olmaqdır. Onun sözlərinə görə, əgər İran danışıqlara razılaşmasa, ABŞ hərbi əməliyyatları davam etdirəcək. Hücumlar Vaşinqton qarşıya qoyduğu məqsədlərə nail olana qədər davam edəcək. "Əgər İran masa arxasına keçib danışıqlar aparmasa, bütün elektrik stansiyalarını, bütün körpülərini sıradan çıxaracağıq",- deyə o, əlavə edib.

### İrana qarşı yeni sanksiyalar tətbiq olunub

ABŞ Maliyyə Nazirliyi isə İranın bir sıra fiziki və hüquqi şəxslərinə, həmçinin "kölgə donanması" və ballistik raketlərin, eləcə də silahların istehsalı üçün materialların tədarükü ilə əlaqəli gəmilərə qarşı yeni sanksiyalar tətbiq edib. Maliyyə Nazirliyinin məlumatında qeyd olunur ki, yeni məhdudiyyətlər Vaşinqton və Tehran arasında ABŞ-ın yeni sanksiyalardan imtina etməsini nəzərdə tutan anlaşma memorandumunun imzalanmasından qısa müddət sonra tətbiq edilib. Analitiklər hesab edirlər ki, bu addım tərəflər arasında gərginliyin artmasından xəbər verə və İranın nüvə proqramı üzrə yekun razılaşmanın əldə olunması şanslarını azalda bilər. Müşahidəçilərin fikrincə, vəziyyətin gələcək inkişafı ABŞ ilə İran rəsmilərinin bəyanatlarından, həmçinin Hörmüz boğazındakı hadisələrdən və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) mövqeyindən asılı olacaq.

*N.BAYRAMLI*



# Konqoda "Ebola" virusuna yoluxanların sayı 2011-ə çatıb

Konqo Demokratik Respublikasında (KDR) "Ebola" virusuna yoluxma hallarının sayı son sutkada daha 20 nəfər artaraq 2011-ə çatıb. Bu barədə ölkənin Rabitə və Media Nazirliyinin gündəlik bülletenində məlumat verilib. Bildirilib ki, hazırda xəstəxanalarda və izolyasiya şöbələrində 376 nəfər müalicə alır.

Qeyd edək ki, "Ebola" epidemiyası mayın 15-də Konqo Demokratik Respublikasının şərqində və Uqandada başlayıb.

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

*əvvəli ötən saylarımızda*

Hekayənin açarı da elə misal çəkdiyimiz bu abzasın son cümləsidir. Arzu, ümid insana daim əzab gətirir, dünyanın acılarından azad olmağın, fələyin caynağından qurtulmağın tək yolu arzulardan üz döndərib ümidləri qatı açılmadan yiyəsinə qaytarmaqdır - bunu hələ iki min altı yüz il qabaq Dao, ondan yüz il sonra Budda deyirdi. Labüd fəlakət anında qəhrəmanımız belə bir azadlıq məqamına yetişir, hətta fırtına qoynunda ölümün gözəlliyi, Tanrının qüdrətindən doğan belə bir gözəlliyin fonunda özünün miskin varlığı sarıdan qayğılanmağın mənasızlığı haqda düşünməyə də vaxt tapır. Bu vaxt gəminin arxa hissəsində qalmış yeganə əşyadan - boş su çəlləyindən yapışmış qardaşı çəlləyi buraxıb ona sarı sürünüb rım-boltdan tutur: "Həyəcandan elə çaşmışdı ki, mənim əllərimi itələyirdi, çünki bu "saman çöpü" ikimiz üçün çox balacaydı. Onun bu hərəkətindən necə məyus olduğumu deməyə dilim gəlmir, hərçənd qardaşımın neylədiyini bilmədən dəhşət içində başını itirdiyini də görürdüm. Odur ki, onunla mübarizəyə girişmədim, artıq dözübdözməyəcəyimizin mənimçün fərqi yoxuydu. Beləliklə, rım-boltu buraxıb gəminin arxa hissəsinə keçdim. Mən çəlləkdən yapışmağa macal tapmamış gəmi qəfildən sol böyrü üstə əyilib burulğana sarı sütüməyə başladı. Dodaqlarımın altında dua oxuyub ölümü qarşılamağa hazırlaşdım".

Hekayənin qəhrəmanı son anda özünü kəndirlə çəlləyə bağlayıb dənizə atılır. Qardaşını burulğanın dibində gözləyən taleyin ixtiyarına verməyə məcbur olur, çünki bu dünyada hər kəs yalnız özünü xilas eləyə bilər, hər kəs yalnız öz taleyinə dov gələ bilər; bu mənada hər kəs təkdir, köməksizdir, ancaq çarəsiz deyil. Elə sarıldığı o çəllək də qəhrəmanımızı qurtarır. Məncə, həmin çəlləyin bir az da padşahdan heç nə ummayan Diogenin çəlləyinə oxşamluğu çatır. Təbiətin dağıdıcı gücü qarşısında bir saman çöpü qədər aciz qəhrəman o vaxt nicat tapır ki, kimsədən nicat ummur. Heç kimdən heç nə ummamağı, fələkdən möhlət dilənməməyi onu ruhi müvazinətə, zehni sakitliyə, total biganəliyə, kosmik apatiyaya qovuşdurur. Ehtiraslardan arınmış rasional idrak, qorxu okeanında islanmayan, batmayan şəffaf intellekt dünyanın ən böyük irrasional təcavüzü müqabilində sudan quru, çirkabdan duru çıxıb, xaosdan nizam yaradan mənəvi həyatın aparıcı qüvvəsinə, timsalına çevrilir.

***

"Qırmızı ölümün maskası" (1842) hekayəsində də təbiətin insanlara təcavüzündən bəhs olunur, ancaq bu dəfə öz balalarını yeyən ana təbiət bərəkətli həyat sellərilə yox, fəlakət toxumlarıtək sədiyi mikroblarla, viruslarla hücuma keçir: "Qırmızı ölüm ölkəni çoxdan viran qoymuşdu. Hələ heç bir ölət belə amansız, belə öldürücü olmamışdı. Onun qana boyanmış damğasından, möhüründən al qırmızı dəhşət damırdı! Bu azara yoluxanı qəfil gicəllənmə, sonra əzablı titrətmə tutur, ardınca da xəstənin canından tər kimi qan sızırdı - ölüm beləcə qan-tər içində gəlirdi. Qurbanlığın bədəninə, ondan da ötə üzünə tünd qırmızı ləkə düşər-düşməz əzizləri bəlalıdan əl üzürdülər. Azarın yaxalamağıyla öldürməyinin arası yarım saat da çəkmirdi".

Fəqət şahzadə Prospero qabaqkı kimi şad-xürrəm dolanır - qorxu onun canına yol tapmayıb, ağlı kəsərdən düşməyib. Torpaqlarında, demək olar, bir inli-cinli qalmayanda Prospero özünə yaxın min nəfər ən yelbeyin, ən dözümlü adamı başına yığıb, onlarla birgə ölkəsindəki quşqonmaz monastırlardan birinə, əlçatmaz, ünyetməz bir bucağa çəkilir ("Dekameron" qəhrəmanlarının Qara ölümdən qaçıb Florensiya kənarındakı malikanədə məskunlaşmasını xatırladır). Şahzadənin şahanə zövqünə uyğun qurulmuş gözəl, əzəmətli tikilini dəmir darvazalı topdağıtmaz uca divarla kəmərləyirlər. Hasarın o üzünə adlayan kimi saray adamları rəzələri dəmirçi kürəsində əridib, ağır çəkiclərlə darvazaya bərk-bərk pərçimləyirlər. Dərd içəri dürtülüb ağıllarını başlarından almasın, əllərini ümiddən üzməsin deyə bütün giriş-çıxışları bağlayırlar: "Monastırda dolanmaq üçün hər şey vardı, saray əhli azar-bezardan uzaqda arxayın yaşaya bilərdi. Divarın çöl üzündə qalanlar da zəhmət çəkib öz başlarına özləri çarə qılsınlar! İndi qəm dəryasına batmaq, baş sındırmaq sarsaqlıq olardı. Əyləncə qıtlığı çəkilməsin deyə şahzadə qabaqcadan tədbir görmüşdü. Buranın təlxəyi də vardı, məddahı da, çalanı da vardı, oynayanı da, gözəli də vardı, şərabı da. Bunlar hamısı üstəgəl qorxusuzluq. Eşikdə isə Qırmızı ölüm at oynadırdı..."

Abbatlıqda yaşadıqlarının altıncı ayında, azarın hələ də tüğyan elədiyi vaxtda şahzadə Prospero misli görünməmiş bal-maskarad hazırladıb min dostunu başına toplayır. Məclisin qurulduğu yeddi otağın hər birinə bir rəngdə bəzək vurulur: "Rəngbərəng pəncərə şüşələri otaqların bər-bəzəyinə, yerinə uyğun seçilmişdi. Məsələn, dəhlizin gündoğana baxan başındakı otaq mavi boyandığından pəncərələrinə də açıq-göy şüşə vurulmuşdu. İkinci otaq qırmızı bəzəndiyinə görə pəncərələri də yaqut kimi parlayırdı. Yaşıla tutulmuş üçüncü otağa da özü rəngdə aynalar seçilmişdi. Dördüncü otağın xalısı-pərdəsi, işığı narıncı, beşinci otağın bər-bəzəyi ağ, altıncı otağın yarașığı da bənövşəyi rəngdəydi. Yeddinci otağa qara məxmər tutulmuşdu: tavandan divar boyu axıb tökülən ağır qara pərdələrin ətəyi qara məxmər salınmış döşəmənin üstündə qat-qat durrurdu. Yalnız bu otaqda pəncərələr divarlardan seçilirdi: pəncərə şüşələri al qırmızı qana boyanmış kimiydi. Yeddi otağın yeddisində də künc-bucağa səpələnmiş, tavandan asılmış saysız-hesabsız qızıl-zinətin arasında bircə əndil, bircə şamdan gözə dəymirdi - otaqlar şamla, çıraqla işıqlandırılmırdı: ara yolun başına dolanan dəhliz boyu hər pəncərənin qarşısına üstündə kürə alovlanan iri üçayaq qoyulmuşdu, alovun şöləsi şüşədən içəri axıb otağı rəngli işığa bürüdükcə dörd divar arasında nə varsa hamısı yaxşı kimi, xəyal kimi görünürdü. Günbatana baxan qara otaqda isə qan-qırmızı şüşədən keçib qaranlıq pərdələrin üstünə düşən işıq adama daha da sirli-sehirli gəldiyindən, üstəlik də, içəridəkilərin üzünü tanınmaz hala saldığından tək-tək qonaq bu qapının kandarını adlamağa ürək eləyirdi. Bu otağın günbatana açılan pəncərəsinin altında qara ağacdan düzəldilmiş nəhəng bir saat vardı. Saatın ağır kəfkiri yeknəsəq boğuq cingiltiylə sağa-sola yellənirdi, hər saat başı onun mis ciyərlərindən aydın, ürəyəyatan, həm də olduqca məlahətli gur bir səs qopurdu..."

Bu saat, əlbəttə, əcəl saatı, onun zəngi də, şübhəsiz, əcəl zəngidir. O səsin çox qəribə gücü, tembri olduğundan çalğıçılar hər saatın tamamında əl saxlayıb ona qulaq kəsilirlər. Bu vaxt oynayan cütlüklər fırlanmağına ara verir, kefcil dəstə çaşqın-çaşqın donub qalır, saatın zəngi vurduqca ən yava pozğunların da qanı qaçır, bir az yaşlı, bir az müdrik olanlarsa qara-qura fikirləri başlarından silib atmaq üçün əllərini alınlarına çəkirlər. Saatın səsi kəsərkəsməz şən gülüşlər yenidən otaqları doldurur, çalğıçılar boş yerə səksəkəyə düşdüklərinə gülürmüşlər kimi təbəssümlə baxışırlar, hər biri də böyründəkinə pıçıldayıb and-aman eləyir ki, indən belə zəng səsini vecinə almayacaq. Di gəl, düz altmış dəqiqədən - zamanın xırda doğranmış üç min altı yüz saniyəsindən sonra yenə otağı bir çaşqınlıq bürüyür, məclis əhlinin canına yenə vəlvələ düşür. Ölüm zəhmli səsini yenidən işə salır. Bununla belə məclis əhli şənlənməyindən qalmır.

*davamı növbəti sayımızda*



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Sənətkar ömrü...

## Mirzə Babayevin anadan olmasından 113 il ötür...



Bu gün Azərbaycan estrada musiqisinin banilərindən sayılan M.Babayevin anadan olmasından 113 il ötür. O, təkcə Azərbaycan musiqisinin sevilən səsi deyil, həm də elmi düşüncə ilə incəsənətin eyni insanda necə harmonik şəkildə birləşə biləcəyinin nadir nümunələrindən biri kimi mədəniyyət tariximizdə özünəməxsus yer tutan şəxsiyyətlərdəndir. M.Babayevin ömür yolu göstərir ki, insanın istedadı yalnız bir sahə ilə məhdudlaşmır, əksinə, zəhmət, intellekt və yaradıcılıq eşqi ilə müxtəlif istiqamətlərdə parlaq uğur qazanmaq mümkündür.

M.Babayev müğənnilik fəaliyyətinə 1940-cı illərin əvvəlində müharibədən qayıdan zaman görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlayıb. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, məşhur müğənni Bülbülün sinfinə daxil olub. Mirzə Babayev 40-dan artıq filmdə rol alıb.

**Xalqın böyük məhəbbətini qazanmışdı...**

Azərbaycan Dövlət Konservatoriyasında təhsil alarkən müəllimi hələ o zaman hiss etmişdi ki, Mirzə Babayevin həm də aktyorluq istedadı var. Elə bu istedaddan irəli gəlirdi ki, o, 40-dən artıq filmdə obraz yaratmışdı. Bu gün onun çəkildiyi filmlərə, televiziya verilişlərinə baxdıqca bu böyük sənətkara xalq məhəbbətinin, onun musiqimizin inkişafındakı xidmətlərinin canlı şahidinə çevrilirik. Bu mötəbər musiqi ocağında dünya və milli musiqimizin elmi əsaslarına yiyələnən Mirzə Babayev tezliklə Azərbaycan estradasının ulduzlarından birinə çevrilmişdi. Harada işləməsindən asılı olmayaraq, Mirzə Babayev milli musiqimizin təbliğatçısı idi. Onu yaxşı tanıyır və sevirdilər.

Bənzərsiz səsə malik olan tanınmış müğənni həm də mahir memar idi - O, Bakıda və Azərbaycanın digər şəhərlərində olan bir çox binaların və muzeylərin də layihə müəllifidir.

**Onunla işləyəndə yorulmurdular...**

“Dərviş Parisi partladır” filmində Məstəli şahı oynayanda Kamil Rüstəmbəyovun bu filmində aktyor çox orijinal bir obraz yaradıb. Hətta bu vaxta kimi Məstəli şahın teatrdakı ifaçılarından da çox-çox irəli gedə bilib. Onunla işləyən rejissorlar deyirdilər ki, Mirzə Babayev işləyəndə heç yorulmaq bilmirdik. Çəkiliş meydançasında elə əhval-ruhiyyə yaradırdı ki, hamı məmnun qalırdı. Ekranda görünməsi ilə tamaşaçının ovqatına tamam yeni bir ruh gətirirdi. Bir sözlə, o, yaratdığı obrazın əsil memarına çevrilirdi.



**İllər ötsə də unudulmayacaq...**

Onun yaradıcılığından cild-cild kitablar yazmaq olar. Çünki onun həyat yolu mədəniyyət və incəsənətimizin zəngin bir dövründən keçir. Onun mahnıları, filmləri uzun illər xalqımızın mənəvi yaddaşında ən həzin duyğular kimi yaşayacaq. Bəli, zaman keçəcək, nəsillər dəyişəcək, amma mənəvi dəyərlərimiz arasında milli musiqimizin əvəzsiz xadimlərindən M.Babayevin yaratdığı mahnılar öz gözəlliyini itirməyəcək. Çünki bu mahnılar xalqımız üçün yaranmışdı və xalq da onların ifaçısını sonsuz məhəbbətlə sevir.

Mirzə Babayevin yaradıcılığının ən mühüm xüsusiyyətlərdən biri sadəliklə peşəkarlığın vəhdətidir. Çünki o, heç vaxt ifalarında nümayişkarlığa üstünlük verməyib, əksinə, təbii ifa tərzi, zərif interpretasiya bacarığı və yüksək musiqi mədəniyyəti ilə dinləyicini valeh etməyi bacarıb. Bu isə onun sənətini zamandan asılı olmayan mənəvi dəyərə çevirib və Azərbaycan musiqisinin qızıl fonduna daxil edib.

Bu gün Mirzə Babayev doğum günündə böyük ehtiramla xatırlanır, onun səsləndirdiyi nəğmələr yenə insanların qəlbində yaşayır, sənətə və elmə bəxş etdiyi töhfələr minnətdarlıqla anılır. Hər dəfə onun ifaları səslənəndə bir daha aydın olur ki, həqiqi sənətkar fiziki ömrünü başa vursa da, yaratdığı əsərlər, formalaşdırdığı mədəni irs və xalqın yaddaşında qazandığı sevgi sayəsində gələcək nəsillər üçün örnək olaraq qalır.

*Yeganə BAYRAMOVA*

# İlanlar haqqında bilmədiklərimiz...

## Əfsanələr və elmi faktlar



İlanlar insanların ən çox ehtiyat etdiyi və qorxu hissi ilə yanaşdığı canlılardan biri hesab olunur. Bir çoxları onları yalnız təbiətdə deyil, hətta şəkillərdə və videolarda gördükdə belə narahatlıq keçirir. Bu mövzu ilə bağlı aparılan elmi tədqiqatlar maraqlı bir məqamı üzə çıxarıb: heyvanlarla əvvəlcədən tanış olmayan azyaşlı körpələrə müxtəlif canlıların təsvirləri nümayiş etdirildikdə, onların diqqəti xüsusilə ilan şəkillərinə yönəlir və bu görüntülərə digər heyvanlardan fərqli reaksiya verdikləri müşahidə olunur.

İlanlar insan həyatında və müxtəlif xalqların mədəniyyətində həmişə xüsusi yer tutub. Onlar mifologiyada ya cəhənnəm məxluqları kimi təsnif edilir, ya da ilahiləşdirilib ibadət olunurdular.

Yeri gəlmişkən, bu gün - iyulun 16-sı Ümumdünya İlan Günü kimi qeyd olunur. İlanların maraqlı xüsusiyyətləri də yetərincə çoxdur. Hazırkı təsnifata görə, dünyada 3600-ə yaxın ilan növü var.

**İlanların çoxu faydalıdır....**

3600-ə yaxın ilan növündən yalnız 600-nün, təqribən 17 faizinin zəhəri mövcuddur. İnsanı öldürə biləcək zəhərə malik ilan növlərinin sayı isə daha az - 232-yə yaxındır.

İnsanlar lap qədim zamanlardan ilanlardan faydalanmağa çalışıb. Qədim Romada bəzi ailələr öz həyətlərində, evlərində ilanlar bəsləyib saxlayarlarmış ki, xəstəlik törədən, ziyan verən siçanların, siçovulların kökü kəsilsin.

Bu gün də tibbi-əczaçılıq və kosmetika sənayesində ilan zəhəri qiymətli tibbi xammal kimi geniş tətbiq olunur. İlan zəhərindən istifadə etməklə qan-damar, əsəb, dəri-əzələ sistemi xəstəliklərinin müalicəsində, cərrahiyədə işlədilən müxtəlif dərman preparatları istehsal edilir.

**Bütün ilanlar kar olur...**

İlanların xarici qulaq seyvanı olmadığından ətrafdakı səsləri eşitməkdən məhrumdurlar. Bu, onların aciz olduqları mənasına gəlmir. Onlar ətrafdakı titrəşimləri hiss etmədə ustadırlar. Həmçinin ilanların ağız boşluğunun arxasında xüsusi bir orqan var. Lamisə orqanı, digər adlarıyla “Jacobso”n orqanı və ya vomeronazal orqan olaraq da bilinən bu orqan ilanın dili vasitəsilə ətrafdan topladığı qoxu molekullarını analiz edərək beynə sinirlərlə siqnallar göndərir. Bütün ilanların haça dillərini tez-tez çölə çıxardıb, yenidən içəri soxmasının səbəbi budur.

**İlanların qisası...**

Xalq arasında geniş yayılmış inanclardan biri odur ki, kimsə ilan öldürsə, həmin ilanın cütü (ikinci versiyada qardaşları) gəlib ilanın qisasını alacaq. İlanlar əsasən yumurta qoyaraq çoxalır (bəzi gürzə və digər ilan növləri istisnadır). Bu isə o deməkdir ki, ilanlar yumurtadan çıxdıqları andan etibarən valideyn qayğısından məhrum olurlar və elə dünyaya gəldikləri ilk saniyələrdən etibarən qardaşlar arasında qida rəqabəti başlayır. Yumurtadan çıxan balalar hər biri fərqli bir yerə ayrılaraq öz həyatlarını davam etdirirlər. Bəzən yumurtadan yeni çıxan balalardan birini öldürən insanlar digər ilanları gördükdə onların qisas almaq üçün gəldiyini zənn edirlər... Amma belə deyil, əslində heç bir ilan qardaşının və ya cütünün qisasını almaq üçün gəlmir.

**Ac qarnına nə qədər dayana bilərlər?**

İnsanlardan fərqli olaraq, yetkin ilanlar bir neçə ay qidasız yaşaya bilər. Bəzi ilan növlərinin ovlarını həzm etməsi 3-5 gün çəkir. İlanlar enerjilərini çox sərf etmədikləri üçün tez-tez yeməyə ehtiyac duymurlar. Xüsusilə, qəfəsdə olan ilanlar çox az qidalanır. Kiçik və cavan ilanlar həftədə bir dəfə, yetkin ilanlar isə ayda bir dəfə yemək yeyirlər. Nəhəng pitonlar və anakondalar isə aylarla yeməksiz qala bilərlər.

**İlan sancanda nə etməli?**

Məlumdur ki, havalar istiləşən kimi ilan sancmaları da artır. Qış yuxusundan ayılıblar, çinədanları zəhərlə doludur, ona görə də çinədanlarını boşaltmalıdırlar. İlan sancanda panikaya düşmək, qaçmaq, qışqırmaq olmaz, bu, təhlükəlidir. Həmin an yaranın yeri su, ətir, spirt və digər təmizləyici vasitələrlə yuyulmalı, oraya soyuq nəsə qoyulmalıdır. Yaxud təmiz tənzifi antiseptik vasitə ilə isladıb həmin yerə qoymaq lazımdır. Ağrıkəsici varsa, vurula bilər. Yaranı çərtmək, yarmaq olmaz. Yara sterildirsə, hər hansı müdaxilə olunubsa, bu, ikinci infeksiyanın bədənə daxil edilməsi deməkdir. İlan sancan şəxs zərdab vurulmaq üçün 5 saatadək xəstəxanaya çatdırılmalıdır. Xəstəxanada müvafiq müalicələr aparılır. Düzgün yardım olunduqda, xəstə sağalır.

*Yeganə BAYRAMOVA*



## Futbol üzrə Haiti millisinin baş məşqçisi istefaya göndərilib



Futbol üzrə Haiti milli komandasının baş məşqçisi Sebastyan Minye istefaya göndərilib. AZƏRTAC Haiti Futbol Federasiyasının rəsmi saytına istinadən xəbər verir ki, fransalı mütəxəssisin qovulmasına yığmanın dünya çempionatında uğursuz çıxışı səbəb olub.

Haiti seçməsi qrup mərhələsində keçirdiyi hər üç oyunda məğlub olaraq mübarizəni dayandırıb. Komanda Şotlandiyaya 0:1, Braziliyaya 0:3, Mərakeşə isə 2:4 hesabı ilə uduzub. Qeyd edək ki, Sebastyan Minye Konqo, Keniya və Ekvatorial Qvineya milli komandalarının baş məşqçisi vəzifəsində də çalışıb.

## Boksçularımız 6 medalla qayıdır



Almaniyanın Frankfurt şəhərində 19 yaşadək boksçular arasında beynəlxalq turnir başa çatıb.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, millimiz yarışda 6 medal qazanıb.

U-19 komandanın heyətində Əli Əliyev (50 kiloqram), Nihat Qasımov (55 kiloqram), Sübhan Babayev (60 kiloqram) gümüş, Toğrul Quliyev (60 kiloqram), Şahin Aslanov (65 kiloqram) və Səftər Məmmədzadə (+90 kiloqram) bürünc medala sahib çıxıblar.

## 6 aya 109 medal

Azərbaycan cüdoçularının ilin ilk yarısında keçirilmiş beynəlxalq yarışlarda əldə etdikləri medalların sayı bəlli olub. Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-ın sorğusuna



cavab olaraq bildirilib ki, milli komandanın üzvləri bu müddətdə 109 medal qazanıblar.

Bunlardan 29-u qızıl, 29-u gümüş və 51-i isə bürünc mükafatdır.

Medallar böyüklər, gənclər, yeniyetmələr və qadınlar arasında keçirilən beynəlxalq turnirlərdə əldə olunub.

## Mikel Oyarsabal İspaniya millisinin tarixinə düşüb



ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi etdiyi futbol üzrə dünya çempionatında finala yüksələn İspaniya millisinin hücumçusu Mikel Oyarsabal yığmanın tarixinə düşüb.

AZƏRTAC FIFA-nın rəsmi saytına istinadən xəbər verir ki, Fransa ilə yarımfinal görüşündə penaltidən fərqlənən 28 yaşlı futbolçu milli komandanın heyətində son 20 oyunda 18-ci qolunu vurub.

Bu qol Oyarsabal üçün yığmada ümumilikdə 30-cu olub. Bununla da “Real Sosyedad”ın forvardı yığmanın tarixində 30 və ya daha çox qol vuran altıncı futbolçu adına sahib çıxıb. Ondan əvvəl bu göstəriciyə David Silva (35), Alvaro Morata (37), Fernando Torres (38), Raul Qonsales (44) və David Vilya (59) nail olublar.

Qeyd edək ki, yarımfinalın ilk görüşündə İspaniya millisi Fransanı 2:0 hesabı ilə məğlub edərək finala vəsiqə qazanıb.

## “Şamaxı” israilli futbolçunu heyətinə qatıb




“Şamaxı” yeni transferini açıqlayıb. Klubdan AZƏRTAC-a bildirilib ki, bölgə təmsilçisi israilli yarımmüdafiəçi Teşaqer Dequnu heyətinə qatıb. 25 yaşlı futbolçu ilə ikiillik (1+1) müqavilə imzalanıb. Dequ son olaraq İsrailin “İroni” (Modin) komandasında çıxış edib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4479**
**Sifariş: 908**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova